AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 14 APREL 2022-Cİ İL / № 13 (1280)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU



## *“Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar”*

**Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirilib.**

Dövlətimizin başçısı müşavirədə çıxış edib. Prezident İlham Əliyev bildirib ki, bu ilin üç ayında görülmüş işlər təhlil ediləcək, eyni zamanda, ilin sonuna qədər olan planlar haqqında danışılacaq.

Dövlətimizin başçısı keçən ilin ölkəmizin həyatında çox əlamətdar bir il olduğunu qeyd edib: “İlk növbədə, beynəlxalq təşkilatlarla öz təmaslarımızı, fəal əməkdaşlığımızı davam etdirmişik və dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etmişlər. BMT xətti ilə Şuşa şəhərində bu yaxınlarda beynəlxalq tədbir keçirilmişdir - Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinə həsr edilmiş tədbir. Bu, çox əlamətdar hadisə idi. Bu, bir daha onu göstərdi ki, BMT Azərbaycanın ərazi bütövlüyünü tam tanıyan qurumdur”.

Prezident İlham Əliyev bildirib ki, postmünaqişə dövründə, əlbəttə, biz bütün bizim iqtisadiyyatla bağlı, ərazilərin bərpası ilə bağlı addımlarımızı ölçüb-biçilmiş şəkildə atmışıq və nəticələr də göz qabağındadır. Azərbaycanda postmünaqişə dövrü ilə bağlı bütün planlar yerinə yetirilir.

**Bizim iqtisadi göstəricilərimiz də çox müsbətdir. Birinci rübün yekunları, bu rəqəmlər faktiki olaraq heç bir şərhə ehtiyac qoymur. Ümumi daxili məhsul 6,8 faiz artıb. Qeyri-neft sektorunda isə bu, daha da yüksək rəqəmlərlə ölçülür. Qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım təxminən 4 faizdir, ancaq qeyri-neft sənaye istehsalında 18 faizdən çoxdur.**

Xarici ticarət dövriyyəmiz 60 faizdən çox artıb. İxracımız təxminən iki dəfə artıb. Əlbəttə, burada neftin artan qiymətləri də nəzərə alınmalıdır. Ancaq qeyri-neft ixracımız da kifayət qədər artıb - 45 faiz. Bu da məhz aparılan islahatlar nəticəsində baş vermiş hadisədir. Xarici ticarətin balansı da çox müsbətdir, müsbət saldo cəmi üç ayda 5 milyard dollardan çoxdur. Yəni, bu, çox böyük rəqəmdir.

Ölkə başçısı deyib ki, Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar. Dünya üçün də bir nümunə olacaq.

**Prezident İlham Əliyev bildirib ki, ölkə üzrə bütövlükdə investisiya proqramının icrası nəticəsində işlər plan üzrə gedir və hər bir bölgədə vətəndaşlar bunu görürlər. Bir çox layihələr vətəndaşların məktubları əsasında icra edilir. Vətəndaşları narahat edən məsələlərlə bağlı onlar müraciət edirlər, həm mənə, həm də Prezident Administrasiyasına, hökumətə, aidiyyəti qurumlara və hər bir müraciət diqqətlə əhatə olunur. Ona görə investisiya proqramımızı tərtib edərkən, əlbəttə ki, yerlərdən gələn təkliflərə üstünlük verilir.**

Minalardan təmizlənmə prosesini sürətləndirmək üçün bu il dövlət büdcəsində 100 milyon manata yaxın vəsait nəzərdə tutulub və bu, bizim üçün prioritet məsələdir. Çünki bu məsələ həll olunmadan biz vətəndaşları o bölgələrə yerləşdirə bilmərik.

Dövlətimizin başçısı deyib ki, Ermənistan da görməlidir ki, o, bizim planlarımızı əngəlləyə bilməz. Əgər Zəngəzur üzərindən bizə keçid verməsə, özü itirəcək və birinci növbədə, 10 noyabr Bəyannaməsini pozmuş olacaq. Çünki 10 noyabr Bəyannaməsində açıq-aşkar yazılıb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqə olmalıdır və bu, Ermənistanın öhdəliyidir. Əgər o, öz öhdəliyini yerinə yetirmək istəmirsə, onda biz də hər hansı bir öhdəliyin yerinə yetirilməsi ilə bağlı heç bir məsuliyyət daşımayacağıq.

**Beləliklə, keçmiş məcburi köçkünləri qaytarmaq üçün kompleks tədbirlər görürük. Yaşayış binaları, infrastruktur, iş yerləri, kənd təsərrüfatı ilə məşğul olmaq imkanları, sənaye parkları - biz planlı şəkildə bu işləri görəcəyik.**

## XİLASKAR LİDER

**Müasir parlaq tariximiz məhz xalqımızın müstəqil, müdrik seçiminin məhsuludur. Arzuladığımız qüdrətli dövlətin vətəndaşlarıyıq. Bu möhtəşəm tarixi bizə yaşadan isə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevdir.**

Ölkəyə rəhbərlik etdiyi son 19 ildə cənab İlham Əliyevin gördüyü fantastik işlər ona təkcə daxildə deyil, beynəlxalq aləmdə də böyük hörmət, nüfuz qazandırıb. Sadəliyi, səmimiliyi, milli təəssübkeşliyi, Azərbaycan sevgisi, vətəninə, xalqına sədaqəti, qətiyyəti, prinsipiallığı və ən nahayət, 30 illik həsrətimizə son qoyan Vətən müharibəsində Baş Sərkərdə kimi Qarabağı işğaldan azad etməsi ona ümumxalq sevgisi qazandırıb.

**Dörd il öncə, 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində cənab İlham Əliyevin xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq növbəti müddətə Azərbaycan Prezidenti seçilməsi də məhz bu sevginin, inamın əyani təzahürü idi. Xalq növbəti dəfə cənab İlham Əliyevi alternativsiz lider kimi qəbul edərək onu özünə rəhbər seçdi və bu günədək baş verən proseslər bu seçimin nə dərəcədə doğru olduğunu isbatladı.**

### Xalqın mütləq əksəriyyətinin seçimi

**Şəffaf, azad, demokratik şəraitdə keçirilən seçkilərdə cənab İlham Əliyev seçicilərin 86,02 faizinin səsini qazanaraq Prezident seçildi. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət verdi, inkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcəyə səs verdi. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş “exit-poll”lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşdü. Hər zaman sözü ilə əməli, işi bir olan dövlət başçısı aprelin 18-də keçirilən andiçmə mərasimindəki çıxışı zamanı bəyan etdi ki, Azərbaycanın daha qüdrətli ölkəyə çevrilməsi üçün bütün imkanları səfərbər edəcək: “Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var... Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar”.**

Ötən 4 il ərzində Azərbaycanın ictimai-siyasi həyatında olduqca böyük tarixi hadisələr baş verib, mühüm proseslər yaşanıb. Bu baxımdan son 4 ili Azərbaycan üçün böyük tarixi mərhələ kimi dəyərləndirmək olar.

davamı səhifə 2-də



## *Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib*

**Aprelin 12-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin 2022-ci ilin yaz sessiyasında növbəti plenar iclası keçirilib.**

İclasa başlamazdan əvvəl S.Qafarova bildirib ki, o, bu ilin əvvəlində aprel ayından başlayaraq hər ay Milli Məclisin komitə iclaslarından birinin Şuşa şəhərində keçiriləcəyini komitə sədrlərinin diqqətinə çatdırmışdı. İlk belə tədbir aprelin 8-də baş tutub və Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin birgə iclası Şuşada təşkil edilib.

**Azərbaycanın parlamentarizm tarixində həmişəlik qalacaq bu hadisə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış şanlı Zəfərin yaratdığı yeni reallığın təzahürlərindən biridir.**

Milli Məclisin sədri onu da vurğulayıb ki, parlamentin komitə iclaslarının Şuşa şəhərində keçirilməsi Prezident İlham Əliyevin Sərəncamı ilə elan edilmiş “Şuşa İli”nə töhfə vermək niyyəti ilə bağlı olub. “Qarabağ Azərbaycandır!” həqiqətini bir daha təsdiq edir. S.Qafarova qeyd edib ki, Milli Məclisin komitələrinin Şuşa şəhərində keçiriləcək iclaslarının qrafiki artıq tərtib olunub və komitə sədrlərinə təqdim ediləcək. Parlamentin bu təşəbbüsünün Prezident İlham Əliyev tərəfindən dəstəkləndiyi bildirilib.

Sonra iclasda aparılan cari məsələlərin müzakirəsində deputatlar, həmçinin gündəmdə olan bir sıra mövzulara dair fikirlərini açıqlayıblar, seçiciləri düşündürən məsələləri diqqətə çatdırıblar.

**Daha sonra parlamentdə gündəlikdəki məsələlərin müzakirəsi keçirilib.**

### FƏRQLƏNƏN TƏLƏBƏLƏRƏ ADLI TƏQAÜDLƏR TƏQDİM OLUNUB

BAX SƏHİFƏ: 3

### Kadrların peşəkarlığı həlledici amildir

BAX SƏHİFƏ: 4

### Azərbaycanlı alimin ABŞ-da dərs vəsaiti çap olunub

BAX SƏHİFƏ: 4

### Əgər onlar baş verənlərlə razı deyillərsə, hüquqlarını məhkəmə yolu ilə həll edə bilərlər

BAX SƏHİFƏ: 8

### *Yeni bazarlara çıxış üçün ixracatçılara vergi-gömrük güzəştləri, dövlət dəstəyi göstəriləcək*

BAX SƏHİFƏ: 5

### *Qida məhsullarının bahalaşacağı və bu sahədə qıtlıq...* yayılan xəbərlər ajiotaj, yoxsa həqiqətdir?

BAX SƏHİFƏ: 6

### Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 8

### Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

### Beynəlxalq
### Maaşların artırılmasını tələb ediblər

BAX SƏHİFƏ: 7

əvvəli səhifə 1-də




### *Mütərəqqi islahatlar, yeni inkişaf strategiyasının yol xəritəsi*

**Son 4 il Prezidentin özü üçün də, Azərbaycan xalqı üçün də böyük sınaq və uğur mərhələsi kimi də səciyyələndirilə bilər. Ötən 4 ildə cənab İlham Əliyevin uğurları, nailiyyətləri əsasən 4 mühüm mərhələdə reallaşıb:**

- Siyasi və iqtisadi uğurların əldə edilməsini şərtləndirən mütərəqqi islahatlar;
- Qlobal pandemiyaya qarşı səmərəli mübarizənin təşkili;
- Vətən müharibəsindəki Şanlı Zəfərlə torpaqlarımızın işğaldan azad edilməsi;
- Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş quruculuq, yenidənqurma işlərinin başlanması.

Son 4 ildə əvvəlki dövrdə olduğu kimi, Azərbaycanın hər bir vətəndaşının və dövlətimizin maraqlarının təmin edilməsi məsələsi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin prioritetini təşkil etdi. Ölkədə dayanıqlı inkişaf, sabitlik və əmin-amanlıq təmin olundu, beynəlxalq mövqelərimiz daha da möhkəmləndirildi. Son 4 ildə minimum əməkhaqqı 2,3 dəfə, orta aylıq əməkhaqqı 40 faizə yaxın artdı. Minimum pensiyada 2,2 dəfə, müavinət və təqaüdlərdə orta hesabla 2,5-3 dəfə, bəzi istiqamətlərdə 3 dəfədən çox artım baş verdi.

**2018-ci il prezident seçkisindən sonra cənab İlham Əliyevin ilk imzaladığı fərman şəhid ailələrinin sosial məsələlərinin həlli istiqamətində oldu. Bu sənədə əsasən 12 min şəhidin 18 mindən çox vərəsəsinə dövlət tərəfindən 11 min manat vəsait ödənildi.**

**Ümumiyyətlə, Prezidentin mütəmadi olaraq paytaxtda və bölgələrdə vətəndaşlarla keçirdiyi səmimi görüşlər, onların qayğıları ilə yaxından maraqlanması, insanların sosial rifahının yaxşılaşdırılması istiqamətində verdiyi qərarlar xalqın cənab İlham Əliyevə olan inamını daha da artırdı. Bu amillər həm də Prezident və xalqın birliyi konsepsiyasının əsas qayəsini təşkil etdi.**

İqtisadi islahatlarla yanaşı reallaşan siyasi islahatlar daha çevik idarəetmə strukturunun yaradılması ilə nəticələndi. Dövlət idarəetmə sistemində modernləşmənin, şəffaflığın təmin edilməsi və idarəetmədə yeni fəaliyyət üslubunun formalaşdırılması istiqamətində böyük uğurlara imza atıldı.

Həmçinin Prezident Administrasiyasının, Nazirlər Kabinetinin və digər dövlət qurumlarının, yerli icra hakimiyyəti orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi istiqamətində ciddi islahatlar aparıldı. Növbədənkənar parlament seçkiləri də bu islahatların tərkib hissəsi oldu.

2019-cu ilin əvvəlindən başlayaraq İlham Əliyev tərəfindən müxtəlif istiqamətlərdə olduğu kimi, sosial sahədə də ciddi islahatlar aparıldı. Ekspertlər tərəfindən sosial inqilab xarakterli qərarlar adlandırılan fərman və sərəncamlar demək olar ki, əhalinin bütün təbəqələrini əhatə etdi.

**Fəaliyyəti ədalətə, humanizm və mərhəmət prinsiplərinə söykənən, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı davam etdirən Prezident İlham Əliyev son 4 ildə də ənənəsinə sadiq qalaraq əfv sərəncamları və amnistiya aktları imzalamaqla minlərlə ailəyə sevinc payı bəxş etdi. Vətən müharibəsində böyük qələbəmizi təmin edən Müzəffər Ali Baş Komandanın təşəbbüsü ilə 2021-ci il noyabrın 5-də qəbul edilmiş Zəfər amnistiyasını da Prezident İlham Əliyevin humanist siyasətinin növbəti təzahürü adlandıra bilərik. İcrası bu il martın 5-də başa çatan amnistiya aktı ümumilikdə 15 min 450 nəfərə şamil edildi. Onlardan 8626 nəfər cəzadan tam azad edildi, 6490 nəfərin cəza müddəti azaldıldı.**

Dövlət başçısının tapşırıqları ilə 2018-ci ildən Azərbaycanda başlanan köklü sosial islahatlar vətəndaş rifahı və məmnunluğunun təmini istiqamətində inqilabi addımların atılmasına, sosial müdafiə və sosial təminat, məşğulluq, əmək münasibətləri, tibbi-sosial reabilitasiya və sosial sahənin digər sektorları üzrə ötən 4 illik bir dönəmdə ciddi irəliləyişlərə imkan verdi.

Bütün bu islahatlar əlbəttə ki, beynəlxalq səviyyədə təqdir edildi. Azərbaycan Prezidentinin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks islahatlar ölkəmizin yeni rekordlara imza atmasına imkan yaratdı. Dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunan Dünya Bankının "Doing Business-2019" hesabatı İlham Əliyevi ən islahatçı Prezident kimi dəyərləndirdi. Hesabata əsasən Azərbaycan dünyanın 10 islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olundu.

### *Qlobal pandemiya ilə mübarizədə nümunəvi ölkə*

**2020-ci il dünyada baş verən qlobal pandemiyanın demək olar ki, bütün ölkələrə yayılması, daha çox yoluxma və insan ölümünə səbəb olması ilə yadda qaldı. Müxtəlif ölkələrdə virusa qarşı peyvəndin yaradılması üzrə işlər əsasən məhz bu dövrə təsadüf etdi. Ötən iki il ərzində dünya ölkələri koronavirusla mübarizəyə kökləndi.**

**Bu dövrün reallıqlarından biri ondan ibarət oldu ki, problemə laqeyd yanaşan, virusun təhlükəli olmadığını düşünən ölkələrdə daha ciddi fəsadlar baş verdi. Xəstəlik dünyanın bir hissəsi olan Azərbaycandan da yan ötmədi. Lakin infeksiyanın aşkarlandığı ilk gündən ölkəmizdə təxirəsalınmaz addımlar atıldı.**

Nazirlər Kabineti yanında Operativ Qərargah fəaliyyətə başladı, "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı" və daha geniş əhatəli Tədbirlər Planı təsdiq edildi. 2020-ci il martın 19-da Koronavirusla Mübarizəyə Dəstək Fondu dünyada ilk dəfə Azərbaycanda təsis edildi. İlkin olaraq Prezidentin Ehtiyat Fondundan 20 milyon manat vəsait ayrıldı. Xalqımızın milli həmrəyliyi və dəstəyi ilə fonda 100 milyon manatdan artıq vəsait toplandı. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva birillik əməkhaqlarını fonda ianə etdilər.

**COVID-19 virusuna yoluxmuş şəxslərin müalicəsi üçün 46 xəstəxana müəyyən edildi. Hansı ki, bu xəstəxanalın 41-i 2004-cü ildən sonra inşa olunub. 11 modul tipli xəstəxana istifadəyə verildi. Bu, virusa yoluxanların effektiv müalicə almasında böyük rol oynadı. Daha bir neçə modul tipli xəstəxananın tikintisi nəzərdə tutulsa da, virusun yayılmasına qarşı keçirilən effektiv mübarizə tədbirlərinin nəticəsində onlara ehtiyac olmadı.**

Prezident İlham Əliyev 2020-ci il martın 28-də Bakıda "Yeni klinika"nın, iyulun 6-da isə FHN-nin modul tipli hospitalının açılışını etdi.

Prezidentin sərəncamı ilə yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan 176 məhkum, o cümlədən 165 kişi və 11 qadın cəzalarının çəkilməmiş hissəsindən azad edildi.

Ən mühüm addımlardan biri də o oldu ki, ölkəmizdə qoruyucu və dezinfeksiya vasitələrinin istehsalı təşkil olundu və qısa müddətdə bu sahədə olan çatışmazlıqlar aradan qaldırıldı. 2020-ci il aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi açıldı.

Dövlət başçısnın fərman və sərəncamlarına, tapşırıq və göstərişlərinə uyğun olaraq bütün dünyada nadir nümunələrdən biri kimi respublikamızda pandemiya dövründə geniş sosial proqramlar həyata keçirildi. Müstəqillik tarixinin ən böyük sosial paketi qəbul olundu. 5 milyona yaxın insan geniş sosial paketlə əhatə olundu.

Azərbaycan dünyada COVID-ə qarşı vaksinləşdirməyə başlayan ilk ölkə olaraq, bu sahədə əhəmiyyətli addımlar atdı. Ölkədə 2021-ci il yanvarın 18-dən başlayan koronavirusa qarşı vaksinasiya dövlət hesabına aparılır.

**Pandemiya ilə mübarizədə qlobal həmrəyliyə nail olunmasının vacibliyi ilk gündən meydana çıxan çağırış idi. Bu çağırışı ilk dəyərləndirən Prezident İlham Əliyev oldu. Məhz cənab İlham Əliyev koronavirusla mübarizədə beynəlxalq həmrəyliyin əldə olunması üçün təşəbbüslərlə çıxış etdi. 2020-ci ilin aprel ayında Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının koronavirusla mübarizəyə həsr olunmuş Zirvə görüşüünün keçirilməsi bu istiqamətdə baş tutan ilk beynəlxalq tədbir idi.**

Azərbaycan Prezidenti ortaya qoyduğu məqsədyönlü mövqeyi, prinsipial yanaşmanı daha bir qlobal təşəbbüslə davam etdirdi. Türk Şurasının Zirvə görüşündən sonra Azərbaycanın təşkilatçılığı ilə koronavirusla mübarizə üzrə növbəti beynəlxalq tədbir baş tutdu. 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirildi. 2021-ci il dekabrın 16-da BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında Qoşulmama Hərəkatının Sədri qismində Azərbaycan Prezidentinin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlərin mütləq əksəriyyətinin (179 dövlət) dəstəyi ilə qəbul edildi.

**BMT-yə üzv olan 126 dövlət qətnaməyə həmmüəllif qismində qoşuldu. Qətnamənin qəbulu Azərbaycan Prezidentinin sədrliyi ilə Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizədə qlobal təşəbbüslərin mərkəzində olmağa davam etdiyinin daha bir göstəricisi idi.**

Peyvəndlərə çıxışla əlaqədar dövlətlər arasında dərinləşən qeyri-bərabərliyin aradan qaldırılması üçün Azərbaycan ÜST-ə 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etdi ki, onun da yarısı Qoşulmama Hərəkatının üzvlərinə birbaşa yardım oldu.

### Qələbəyə aparan yol, hücum diplomatiyası və Baş Sərkərdənin tarixi zəfəri

**Prezident İlham Əliyevin yürütdüyü hücum diplomatiyası erməni lobbisinin xaricdəki gücünü sındırdı, əsl sərkərdəlik qabiliyyəti isə Qarabağda "keçilməz", "dağılmaz" dedikləri müdafiə istehkamları ilə bağlı mifi darmadağın etdi.**

Öncə Azərbaycanın dövlət başçısı siyasi meydanda möhtəşəm uğurlar qazandı. Ermənistanın baş naziri Nikol Paşinyanı siyasi dialoqlarda mat vəziyyətində qoydu. Dünya Dağlıq Qarabağ probleminin mahiyyətinə varmağa başladı, Azərbaycan haqqında həqiqətlərə diqqət kəsildi. Bütün beynəlxalq tribunalardan, ali kürsülərdən dünyaya səslənən Azərbaycan Prezidenti Ermənistanın işğalçı dövlət olduğunu isbatladı. Beynəlxalq ictimai rəy Azərbaycanın xeyrinə dəyişməyə başladı.

Cənab İlham Əliyev Ali Baş Komandan kimi Azərbaycanda dünyanın 50 ən güclü ordusundan birini qurdu və bu ordu işğalçıların təxribatlarına qarşı əks-hücum həmlələri ilə müəyyən vaxtlarda düşmənə öz gücünü göstərdi.

Ən nəhayət, cənab İlham Əliyev Ali Baş Komandan kimi xalqa verdiyi vədi gerçəkləşdirdi. Hansı ki, 4 il öncə andiçmə mərasimində söyləmişdi ki, Azərbaycan xalqı heç vaxt bu işğal faktı ilə barışmayacaq və torpaqlarımız düşmən tapdağından azad ediləcək. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq.

**2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatları ilə başlayan Vətən müharibəsi düşmənə tarixinin ən ağır zərbəsini vurdu. Düzdür, bu savaş zamanı Azərbaycana böyük təzyiqlər də göstərildi. Ancaq qətiyyətli siyasi iradə nümayiş etdirən cənab İlham Əliyev bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək, öz prinsipial mövqeyindən dönmədi.**

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün müddətində Ermənistanı diz çökdürüb hərbi kapitulyasiyaya məcbur etdi. Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra Ali Baş Komandan Qalib Sərkərdə kimi noyabrın 16-da Qarabağa səfər etdi. Həmin an tarixi gün idi. O gün Prezident İlham Əliyev savaş dövründə Azərbaycanın qəhrəman oğullarının döyüşə-döyüşə Şuşaya qədər getdikləri cığırları Zəfər yolu adlandırdı və Füzulidən Şuşaya aparacaq yeni avtomobil yolunun təməlini qoydu.

**2012-ci il yanvarın 14-də isə Prezident Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoydu, Zəfər yolu ilə Şuşaya Qalib Sərkərdə kimi ayaq basdı və qədim qalamızdan düşmənə gözdağı verdi: "Biz qalib xalqıq. Mən Şuşaya son dəfə 39 il bundan əvvəl gəlmişəm. 39 il bundan əvvəl iki dəfə gəlmişəm və birinci dəfə yanvarın 14-də gəlmişəm. Bax, bu gün, yanvarın 14-də yenə də buradayıq. Bu dəfə müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm. Düşmənin belini qıran ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq! Biz Şuşanı və dağıdılmış bütün başqa şəhər və kəndlərimizi bərpa edəcəyik. Dağıdılmış bütün tarixi abidələrimizi bərpa edəcəyik".**

Bu, təkcə Ermənistana deyil, bütün dünyaya mesaj idi. Azərbaycan Prezidenti bəşəriyyətə səslənərək dedi ki, düşmənin 30 ilə daşı daş üstündə qoymadığı şəhər və kəndlərimizi qısa zamanda öz gücümüzə bərpa edəcəyik.

Beləliklə, İkinci Qarabağ müharibəsi böyük zəfərimizlə bitdi. Azərbaycan son 200 illik tarixində müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Bu şanlı qələbədən sonra regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı.

**Müharibə dövründə Prezident İlham Əliyev bütün cəbhələrdə öndə idi və diplomatik məharəti ilə hətta informasiya cəbhəsində apardığı mübarizədən qalib çıxdı. Tutarlı, sərrast cavabları, dəmir məntiqə əsaslanan arqumentləri ilə dünyanın aparıcı media mənsublarına verdiyi cavablarla Ermənistanın bu sahədə apardığı yalan, heç bir həqiqətə əsaslanmayan böhtan dolu təbliğatını alt-üst etdi. Təkcə Vətən müharibəsi dövründə 40-a yaxın xarici KİV-ə müsahibə verən dövlət başçısı Azərbaycan həqiqətlərini çatdırmaqla ölkəmiz haqqında dünya ictimaiyyətində müsbət rəy formalaşdırmağı bacardı. Artıq mövcud olmayan Qarabağ münaqişəsi, müharibənin başlama səbəbləri, gedişi barədə analitik şərhləri, diplomatik cavabları ilə Ermənistanın işğalçı, təcavüzkar mahiyyətini açıb göstərdi, terrorun bu ölkə tərəfindən dövlət səviyyəsində dəstəkləndiyini sübut etdi. Qərəzli, təxribat xarakterli suallara verdiyi təmkinli, səbirli, həmçinin əsaslandırılmış cavablarla hər kəsə öz yerini göstərdi.**

Bu müharibə dünyaya Azərbaycan xalqının nə qədər böyük, yenilməz, dəmir iradəli, müzəffər xalq olduğunu göstərdi. Bu tarixi nəticə bizlər haqqında "məğlub xalq" rəyini sındırdı, xalqımıza özgüvən aşıladı, milli qürurumuzu qabartdı.

Vətən müharibəsində qazandığımız qələbə İlham Əliyevin hakimiyyətdə olduğu illər ərzində həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyasının məntiqi nəticəsi idi. Tarixi qələbə ilə Azərbaycan bir daha dünyanın inkişaf etmiş dövlətlərindən biri olduğunu təsdiqlədi. Bu zəfərlə adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdıran Ali Baş Komandana ümumxalq sevgisi daha da artdı.

### Qarabağ və Şərqi Zəngəzurda misli görünməyən quruculuq işləri

**Bu zəfərdən sonra regionda yeni reallıqlar yarandı. Azərbaycan işğaldan azad etdiyi torpaqlarında erməni vəhşiliyini, barbarlığını dünyaya nümayiş etdirdi. Hansı ki, son 28 ildə şəhərlərimizin, kəndlərimizin daşı daş üstündə qalmayıb, darmadağın ediləरək sanki torpaq üzərindən silinib. Bəşəriyyət bir daha şahidlik etdi ki, Ermənistan illərlə dünyaya yalan satıb.**

Amma düşmənin bu xisləti heç də Azərbaycanı ruhdan, həvəsdən salmadı. Prezidentin sərəncamı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı və azad edilən torpaqlarımızda quruculuq, yenidənqurma işlərinin başlanması ilə bağlı tapşırıq verildi. Heç bir maliyyə təşkilatından, beynəlxalq qurumdan, hansısa dövlətdən yardım almadan Azərbaycan öz imkanları hesabına bu işləri həyata keçirməyə başladı.

Hava limanları, dəmir və avtomobil yolları, enerji və su təchizatı, daxili infrastrukturlar, yaşayış məskənləri və Zəngəzur dəhlizinin açılması istiqamətində başlanan işlər getdikcə geniş vüsət aldı. Bu gün işğaldan azad edilmiş torpaqlarımızda misli görünməmiş quruculuq işləri davam edir. Prezidentin şəxsi nəzarətində olan bu işlər sürətlə aparılır. Cənab İlham Əliyev mütəmadi olaraq Qarabağa və Şərqi Zəngəzura səfər edərək görülən işlərlə maraqlanır və hər səfərində hansısa obyektin ya açılışını edir, ya da təməlini qoyur.

**Artıq vətəndaşlarımız marşrut avtobusları ilə Şuşaya, Ağdama səfərlər edirlər. Füzuli hava limanı Qarabağın ilk hava qapısı kimi vətəndaşların xidmətindədir. Bu ərazilərdə 16 avtomobil yolunun inşası davam edir və tezliklə bütün istiqamətlərə yeni asfalt yollarla hərəkət başlayacaq. Bütün bunlarını baş memarı əlbəttə ki, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən cənab İlham Əliyevdir.**

Əminliklə deyə bilərik ki, Azərbaycan Prezidentinin "Qarabağı yenidən cənnətməkana çevirəcəyik" fikri tezliklə reallaşacaq və dünya bir daha ölkəmizin iqtisadi qüdrətinin şahidi olacaq.

Bütün bunlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin qətiyyəti, yüksək siyasi iradəsi sayəsində həyata keçirilən ardıcıl islahatlar ölkəmizi gücləndirir, insanların rifah halını yüksəldir, dövləti, dövlət məmurlarını xalqa daha da yaxınlaşdırıb, doğmalaşdırır.

### Sülh danışıqları prosesini Qalib Komandan idarə edir

**Azərbaycanın Qarabağ münaqişəsini həll etməklə yaratdığı dəyişməz reallıqlar bu gün bütün tərəflərin maraqlarına cavab verir. Bunu beynəlxalq təşkilatların, həmçinin prosesə münasibət bildirən dövlətlərin davranışları da sübut edir. Reallıq isə ondan ibarətdir ki, işğala son qoyulmaqla region Ermənistanın yaratdığı bataqlıqdan xilas olaraq sürətli inkişaf yoluna qədəm qoyub. Bu, bütövlükdə region ölkələrinin siyasi-iqtisadi maraqlarına tam cavab verir.**

Postmüharibə dövründə aparılan bütün danışıqlar Azərbaycanın milli maraqları çərçivəsində və irəli sürdüyü təkliflər əsasında aparılır. Bu istiqamətdə aprelin 6-da Prezident İlham Əliyevin Brüsselə səfəri, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə, Ermənistanın baş naziri Nikol Paşinyanla ikinci görüşünü və əldə olunmuş nəticələri əhəmiyyətli irəliləyiş kimi qiymətləndirmək olar. Bunu həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin növbəti böyük uğuru kimi dəyərləndirmək lazımdır. Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqlara başlanılması, bu istiqamətdə işçi qrupun yaradılması, Azərbaycanın irəli sürdüyü 5 təklif və bunun əsasında predmetli danışıqların aparılması Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində önəmli işlərdir. Delimitasiya prosesinə başlanılması məsələsi müharibə başa çatdıqdan sonra Azərbaycanın irəli sürdüyü ilk təkliflərdəndir və son danışıqlarda bu barədə razılığın əldə olunması çox əhəmiyyətlidir.

**Beləliklə, danışıqlar Azərbaycanın irəli sürdüyü 5 təklifin əsasında aparılır. Bu təklifdəki əsas məqam Azərbaycanın ərazi bütövlüyüdür. Məhz bu səbəbdən də Brüsseldə keçirilən ikinci görüş Prezident İlham Əliyevin siyasi diplomatiyasının növbəti uğuru hesab olunmalıdır. Çünki görüşdə tərəflərin, konkret olaraq Ermənistanın üzərinə götürdüyü öhdəlik elə Azərbaycanın iradəsinin reallaşması deməkdir. Bütün bunlar onu deməyə əsas verir ki, həm məğlub Ermənistan, həm də vasitəçilik edən beynəlxalq təşkilatlar Azəbaycan Prezidentinin siyasi qərarları ilə razılaşmaq məcburiyyətindədirlər. Çünki bu gün regionda diktəni Qalib Komandan cənab İlham Əliyev edir.**

Göründüyü kimi, adını tariximizə həm də Xilaskar Lider kimi yazdıran cənab İlham Əliyev milli maraqlara əsaslanan, tam müstəqil, prinsipial siyasəti ilə Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün var gücü ilə çalışır. Bu istiqamətdə həyata keçirilən qətiyyətli siyasətin mərkəzində həm də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın əzmkar fəaliyyəti də dayanır. Dövlət başçısının verdiyi strateji qərarların, islahatların aparılması, müsbətə doğru dəyişikliklərin həyata keçirilməsi niyyəti ilə irəli sürdüyü vəzifələrin uğurla icrasını, öz məqsədinə çatmasını təmin edən başlıca dəstək də məhz Mehriban xanım Əliyeva tərəfindən verilir. Mehriban xanım Əliyeva bütün cəhətləri ilə xalq adamıdır, vətəndaşlarımızın birmənalı dəstəyini qazanmış dövlət xadimidir, gördüyü işlərlə xalqın istəklərini yerinə yetirən, insanların arzularından gəlmiş uğurlu, parlaq simadır. Gördüyü bütün işlərlə Prezidentə dayaqdır, ən yaxın silahdaşdır.

**Həm Prezidentin, həm də Birinci vitse-prezidentin Azərbaycanın uğurları naminə həyata keçirdikləri siyasət, apardıqları təbliğat, xalqın xoş rifahı naminə gerçəkləşdirdikləri layihələr onu deməyə əsas verir ki, Azərbaycan daha möhtəşəm, daha qüdrətli gələcəyə doğru inamla addımlayır.**

**Səttar MÖHBALIYEV,**
**Milli Məclisin deputatı,**
**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri**

***"Azərbaycan" qəzeti***
***10.04.2022***

# FƏRQLƏNƏN TƏLƏBƏLƏRƏ ADLI TƏQAÜDLƏR TƏQDİM OLUNUB



**Aprelin 8-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında 2021/2022-ci dərs ilinin qış imtahan sessiyasının nəticələrinə görə əlaçı və həmkarlar ittifaqı fəalı olan ali məktəb tələbələrinə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Respublika Komitəsinin adlı təqaüdünün verilməsi mərasimi keçirilib.**

Mərasimdə ATİAHİ Respublika Komitəsinin sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev, Respublika Komitəsinin sədr müavinləri və ali təhsil ocaqlarının tələbə həmkarlar ittifaqı komitələrinin sədrləri və tələbələr iştirak ediblər.

Öncə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş oğul və qızlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

**Sonra Respublika Komitəsinin sədri Səttar Möhbalıyev çıxış edib. Milli Məclisin deputatı bildirib ki, ATİAHİ Respublika Komitəsinin adlı təqaüdü 1995-ci ildə təsis edilmişdir. O vaxtdan bu günə qədər ali təhsil müəssisələrində qış və yay sessiyasının nəticələrinə görə uğur əldə etmiş 2654 nəfər tələbə bu təqaüddən yararlanmışdır. Bu gün 2021/2022-ci dərs ilinin qış imtahan sessiyasının nəticələrinə görə əlaçı və həmkarlar ittifaqı fəalı olan daha 65 nəfər ali məktəb tələbəsinə ATİAHİ Respublika Komitəsinin adlı təqaüdü təqdim olunacaq. Bu təqaüdün verilməsində məqsəd tələbələrdə elmə, təhsilə marağın artırılması və Azərbaycanda həyata keçirilən uğurlu gənclər siyasətinə dəstək verməkdir.**



Qeyd edim ki, tələbələrə adlı təqaüdün verilməsi ATİAHİ Respublika Komitəsinin gənclərlə bağlı təşkil etdiyi tədbirlərdən birini təşkil edir. Hər il gənclərin sosial vəziyyətinin yaxşılaşdırılması, gənclər arasında kütləvi bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi, istedadlı gənclərin aşkara çıxarılması, onların istedad və qabiliyyətlərinin inkişafı üçün şəraitin yaradılması, gənclərin elmə, təhsilə marağın artırılması, xalqımızın tarixinə, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə edilməsi, hərbi vətənpərvərlik tərbiyəsi işinin aparılması ilə bağlı mühüm tədbirlər həyata keçirilir.

Bizim bu işləri görməkdə məqsədimiz siz gənclərin asudə vaxtını səmərəli keçirmək, pis vərdişlərdən uzaq olmaq, elmə, təhsilə maraq yaratmaqdır.

**Respublika Komitəsinin sədri deyib ki, Azərbaycanda gənclərin sağlam ruhda böyüməsi və layiqli vətəndaş kimi yetişməsi üçün ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Ölkədə həyata keçirilən dövlət gənclər siyasəti geniş bir spektri - gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, cəmiyyətin bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir.**

Əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının birinci xanımı Mehriban xanım Əliyeva tərəfindən davam etdirilən uğurlu gənclər siyasəti gənclərin potensial imkanlarından səmərəli istifadə etməklə ölkəmizin qüdrətli dövlətə çevrilməsi prosesini stimullaşdırır.

**Möhtərəm Prezidentimiz gənclərimizin hərtərəfli inkişafı üçün bütün imkanlardan istifadə edir. Son illərdə gənclərlə bağlı atılan addımlar da bunun əyani sübutudur. Təsadüfi deyildir ki, dövlət başçısının müvafiq sərəncamı ilə 2007-ci il "Gənclər ili" elan edildi. Çoxsaylı sərəncamlar imzalandı. Buna misal olaraq "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə" Dövlət Proqramını, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramını, gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönələn fəaliyyətlərin stimullaşdırılması məqsədilə Gənclər Fondunun yaradılmasını, 2013-cü ildə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi və digər addımları qeyd etmək olar.**

Bundan başqa Prezident İlham Əliyevin sərəncamı ilə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" və 15 sentyabr 2017-ci ildə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı qəbul olundu.

Həmçinin 2020-ci il Azərbaycanda "Könüllülər ili" elan olundu ki, bu da respublikamızın gənclər siyasəti və ümumilikdə gənclərin ictimai-sosial münasibətlər sistemində mövqeyinə güclü təkan verdi, Azərbaycan gənclərinin inkişafının yeni mərhələsinin əsasını qoydu.

**2022-ci ilin fevral ayında Cənab Prezident gənclərin inkişafına istiqamətlənmiş daha bir sənədə imza atdı. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" qəbul olundu. "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 sentyabr tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə hazırlanmış bu Dövlət Proqramının əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, Azərbaycan Respublikasının dayanıqlı inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etməkdir.**

Bu Dövlət Proqramının icrası müddətində ümumilikdə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrində təhsil alması təmin ediləcək.

Gənclərlə bağlı bu addımların atılmasında əsas məqsəd müasir, müstəqil Azərbaycanın inkişafında gənclərin potensialından səmərəli istifadə etməkdir. Gənclər siyasəti ölkədə həyata keçirilən inkişaf siyasətinin mühüm tərkib hissəsidir.



**Milli Məclisin deputatı bildirib ki, bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclərin fəaliyyəti üçün dövlətin yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin aparıcı qüvvəsinə çevrilib. Gəncliyimiz ölkəmizin gələcəyi uğrunda inamlı addımlar atır. Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Biz 44 günlük Vətən Müharibəsində bunun əyani şahidi olduq. Rəşadətli Azərbaycan Ordusunun sıralarındakı qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan bu Şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu. Gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak etdilər.**

İnanırıq ki, Azərbaycanda uğurlu gənclər siyasəti bundan sonra da uğurla davam etdiriləcək, gənclərimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizin inkişafına öz layiqli töhfələrini verəcəklər. Bir daha hər birinizi təbrik edir, təhsilinizdə və şəxsi həyatınızda uğurlar arzulayıram!

Sonra ali məktəblərin tələbələri çıxış edərək onlara göstərilən diqqətə görə minnətdarlıqlarını bildirib, bundan sonrakı fəaliyyətlərində qazandıqları bu yüksək nəticələri daha da irəliyə aparacaqlarına söz veriblər.

**Daha sonra təhsildə və həmkarlar ittifaqı işində fərqlənən tələbələrə adlı təqaüdlər təqdim olunub.**











**Adlı təqaüdə layiq görülən tələbələrin şəkilləri qəzetimizin növbəti sayında dərc olunacaq.**

**Azər MUSTAFAYEV**

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə

**Hörmətli Səttar müəllim!**

**"Əlil Körpələrə Yardım" İctimai Birliyimiz fəaliyyətdə olduğu müddətdə daima əlil və kimsəsiz uşaqların problemlərinin həllinə yardımçı olmuş, onların Vətənə layiqli oğul və qızlar kimi yetişməsi üçün əlindən gələni əsirgəməmişdir.**

İl ərzində bütün bayram şənliklərini Sizin dəstəyiniz sayəsində təşkil etmişik. 100 nəfər əlil və kimsəsiz balalarımıza hər il olduğu kimi, bu il də Novruz bayramı münasibətilə "Novruz gəlir, yaz gəlir" başlığı altında keçirilmiş tədbir üçün göndərdiyiniz hədiyyələrə görə öz dərin təşəkkürümü bildirirəm. Sizə və kollektivinizə bütün işlərinizdə uğurlar diləyirəm.

**Sevda HÜSEYNOVA,**
*"Əlil Körpələrə Yardım" İctimai Birliyinin sədri*

**Hörmətli Səttar müəllim!**

**Vətən müharibəsində şəhid olan hərbi qulluqçuların ailələrinə Novruz bayramı münasibətilə göndərdiyiniz bayram sovqatı ilə əlaqədar Sizə öz təşəkkürümü bildirirəm. Şəhid ailələrinə göstərdiyiniz diqqətə görə minnətdarlığımı ifadə edirəm.**

**Calal İSMAYILOV,**
*Vətən müharibəsi şəhidlərinin ailələri ( 50 nəfər) adından*

**Hörmətli Səttar müəllim!**

**AHİK tərəfindən Kürdəmir rayonuna göndərilmiş "Novruz" sovqatları İcra Hakimiyyəti tərəfindən tutulmuş siyahıya əsasən rayonda yaşayan imkansız ailələrə paylanılmışdır. Bu sovqatlar bayram ərəfəsində ehtiyacı olan ailələrə sevinc bəxş etmiş və göstərilən diqqət və qayğıya görə təşəkkürlərini bildirmişlər.**

Rayon İcra Hakimiyyəti adından Sizə minnətdarlığımızı bildiririk.

**A.X.KƏRİMLİ,**
*Kürdəmir Rayon İcra Hakimiyyəti başçısnın müavini*

**Hörmətli Səttar müəllim!**

2022-ci il mart ayında ərizəmə əsasən mənə göndərilən maddi köməkliyə görə Sizə təşəkkür edirəm. Bu xeyirxah və humanist əməllərinizin davamlı olmasını arzulayıram.

Rəna XALIQOVA,
Filologiya üzrə fəlsəfə doktoru, dosent

# KADRLARIN PEŞƏKARLIĞI HƏLLEDİCİ AMİLDİR



**"Gündəlikdə xeyli sayda aktual məsələ var. Bunlardan biri də yeni seçilmiş ilk təşkilat sədrlərinin tərəfimizdən təsdiqidir. Mən iclasımıza elə bu məsələnin təqdimatı ilə başlamağı təklif edirəm. Çünki bütövlükdə işimizin nə dərəcədə uğurlu və ya uğursuz alınması məhz ilk təşkilatlara rəhbərlik edəcək insanların təşkilatçılıq bacarığından, həmkarlar ittifaqı işinə bələdçiliyindən və savadından asılıdır".**

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Rəyasət Heyətinin aprelin 8-də keçirilmiş iclasını Respublika Komitəsinin sədri Hikmət Osmanov bu sözlərlə açdı. Təklif qəbul olundu. Hikmət müəllim yeni sədrləri tədbir iştirakçılarına təqdim etdi və onlara tövsiyələrini verdi. Dedi ki, ilk təşkilatların qanunvericilik çərçivəsində kifayət qədər səlahiyyətləri var. Bu səlahiyyətlər AHİK sədri, millət vəkili Səttar Möhbalıyevin təşəbbüsü ilə "Həmkarlar ittifaqları haqqında" qanuna, Əmək Məcəlləsinə edilmiş dəyişikliklərlə daha da artırılmışdır. Bilirsiniz ki, toplanan üzvlük haqlarının böyük hissəsi ilk təşkilatların hesabında qalır. Bu vəsaitlərdən səmərəli istifadə etməli, işçilərin sosial problemlərinin həllinə şəffaf şəkildə xərclənməsini təmin etməlisiniz. Komitənin qərarı ilə həmkar fəallarına və aztəminatlı işçilərə maddi yardımlar göstərməlisiniz.

Kollektiv müqavilələr, ciddi araşdırmalar apardıqdan sonra, müəssisənin, idarənin gəlirləri nəzərə alınmaqla, həm də əmək qanunvericiliyində nəzərdə tutulandan da artıq güzəştlər əsasında bağlanmalıdır.

**H.Osmanov qeyd etdi ki, kollektiv müqavilələrdə ittifaq üzvlərinin əmək, sosial hüquqlarının müdafiəsi, istirahəti, müalicəsi konkret şəkildə əksini tapmalıdır. İşəgötürənlə işçi arasında anlaşılmazlıq baş verdikdə, işçinin maraqları ön planda tutulmaqla, həmkarlar ittifaqı tərəfindən tənzimlənməlidir.**

Həmkarlar ittifaqı sədrlərini, əməkdaşlarını kollektivin hər bir üzvü tanımalıdır. Buna nail olmaq üçün təkcə tərəfdaşlarla deyil, kollektivlə də tez-tez aktual məsələlərin müzakirəsi aparılmalıdır.

Respublika komitəsinin sədri gündəlikdə duran digər bir məsələyə də münasibət bildirdi: "Həmkarlar ittifaqının fəaliyyətinin başlıca, ən mühüm istiqamətlərindən biri, mən deyərdim, bəlkə də birincisi işçilər üçün təhlükəsiz iş şəraitinin yaradılmasına nail olmaqdır. Buna nail olmaqdan ötrü AHİK sahə həmkarlar ittifaqı təşkilatları, o cümlədən bizim sahə həmkarlar ittifaqı üçün stimullaşdırıcı imkanlar yaradıb.

**Uzun illərdir ki, AHİK "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" devizi altında Respublika baxış-müsabiqəsi keçirir. Bu müsabiqədə hər il sahə müəssisələrimizdən də qalib adını qazananlar olur. Bu ondan xəbər verir ki, Respublika Komitəsi, üzv təşkilatlar əməyin mühafizəsinə ciddi yanaşır, səmərəli iş aparırlar. Yeri gəlmişkən, xüsusilə yeni seçilən həmkarlar ittifaqı komitəsi sədrlərinə xatırladıram ki, əməyin mühafizəsi sahəsində işini qurarkən həmkarlar ittifaqı fəallarının, o cümlədən əməyin mühafizəsi üzrə komissiya sədrlərinin və üzvlərinin, əməyin mühafizəsi üzrə ictimai müvəkkillərin dəstəyindən və yardımından istifadə etsinlər. İşçilərin vaxtında bütün növ təlimatlar almasına xüsusi diqqət yetirsinlər. Bilməlidirlər ki, təlimatlandırma həmkarlar ittifaqı ilə razılaşdırılmış proqrama, müxtəlif peşə sahibləri üçün işlənmiş təlimatlara uyğun təşkil olunmalıdır.**

Hikmət müəllim ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş tədbirlər planını da Rəyasət Heyəti üzvlərinin müzakirəsinə təqdim etdi.

Dedi ki, bu tədbirlər silsiləsindən olan minifutbol yarışına mart ayında start verilib. Aprelin sonlarında başa çatdırılması planlaşdırılıb. 21 komandanın qatıldığı turnirin qaliblərinə mükafatlar ümummilli lider Heydər Əliyevin doğum gününə həsr edəcəyimiz təntənəli tədbirdə təqdim olunacaq.

Rəyasət Heyətinin iclasına çıxarılmış digər məsələlər barədə də çıxışlar dinlənildi. Çıxışlarda bildirildi ki, 2021-2022-ci tədris ili üçün həmkarlar ittifaqı üzvlərinin ali məktəblərdə əla və yaxşı qiymətlərlə oxuyan tələbə övladlarına Respublika Komitəsi tərəfindən təqaüdlər verilməsi davam etdirilir. Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində şəhid olmuş hərbçilərin ailələrinə maddi yardım göstərilib. Respublika Komitəsinin himayəyə götürdüyü şəhid övladlarının ad günləri qeyd edilib və ediləcəyi nəzərdə tutulub.

**Rəyasət Heyəti Gender bərabərliyinin vəziyyətini səciyyələndirən statistik məlumatı təsdiq etdi. İclasda daha bir neçə məsələyə baxıldı və müvafiq qərarlar qəbul olundu.**

# Azərbaycanlı alimin ABŞ-da dərs vəsaiti çap olunub




**Bu günlərdə hüquqşünas alim, hüquq üzrə elmlər doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının Azad Həmkarlar İttifaqının sədri Habil Qurbanovun ABŞ-ın Vaşinqton ştatının Maryland şəhərində "Rockville" nəşriyyatında ingilis dilində "Müqayisəli hüquqşünaslıq" dərs vəsaiti çapdan çıxmışdır.**

**Dərs vəsaiti hüquqi komparativistikanın tərkib hissələrindən biri olan müqayisəli hüquqşünaslığa həsr edilmişdir. Kitabda müqayisəli hüquqşünaslığın ümumi xarakteristikasına, inkişaf tarixinə, təkamül proseslərinə toxunulur, onun ümumnəzəri hüquq elmi sistemində tutduğu yerdən və oynadığı roldan bəhs olunur.**

Dərs vəsaitində müqayisəli təhlillər əsasında dünyanın müxtəlif dövlətlərinin hüquq sistemlərinin ümumi və spesifik cəhətlərindən, onların oxşar və fərqli xüsusiyyətlərindən danışılmaqla yanaşı, ayrı-ayrı ölkələrin, dövlətlərdaxili qurumların və dövlətlərarası birləşmələrin hüquq sistemlərinin səciyyəvi xüsusiyyətləri və müsbət cəhətləri nəzərdən keçirilir.

**Dərs vəsaiti hüquq fakültələrinin tələbələri, doktorantlar, müəllimlər və müqayisəli hüquqşünaslıqla maraqlananlar üçün nəzərdə tutulmuşdur.**

# Sıraları genişlənir



**Kənd Təsərrüfatı Nazirliyinin (KTN) Birləşmiş Həmkarlar İttifaqı Komitəsi üzvlərinin sayının artırılması istiqamətində silsilə tədbirlərini davam etdirir. Bu məqsədlə regionlarda aqrar sahədə fəaliyyət göstərən müəssisə rəhbərləri ilə görüşlər keçirilir, onlara həmkarlar ittifaqı təşkilatının əhəmiyyəti, müəssisədə yeri və rolu haqqında məlumat verilir. Kollektivin təşəbbüsü ilə həmkarlar ittifaqı təşkilatı yaratmaq istəyən müəssisə kollektivlərinə metodiki kömək göstərilir. Özəl sahədə işçilərin təşkilatlanması proqramına uyğun olaraq keçirilən bu kimi görüşlər bir çox rayonlarda səmərə verməkdədir.**

Növbəti görüş Cəlilabad rayonunda Dövlət Aqrar İnkişaf Mərkəzində baş tutub. Mərkəzin direktoru Rahib Kərimov görüş iştirakçılarına rayonda aqrar sahədə görülən işlər, ölkədə fermerlərə göstərilən dövlət dəstəyi haqqında geniş məlumat verib. KTN-nin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Fuad Məmmədov çıxış edərək həmkarlar ittifaqı təşkilatının son illərdə gördüyü işlərdən danışıb. İttifaq üzvlərin say tərkibinin artırılması məsələsinin təşkilatın fəaliyyətinin prioritet istiqamətlərindən olduğunu qeyd edib. Bildirib ki, son aylarda 15 özəl müəssisədə həmkərlar ittifaqı təşkilatı yaradılıb, yaxın vaxtlarda daha 6 şirkətdə işçilər tərəfindən həmkarlar ittifaqı təşkilatının təsis olunacağı gözlənilir. Ümumilikdə yeni yaradılan təşkilatlar 1730 nəfəri əhatə edir.

# Mənəvi dəstəyə görə təşəkkür etdi





**Aprelin 9-da Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri, Vətən Müharibəsi Qəhrəmanı Elyar Arif oğlu Vəliyevin yadigarları - üçəm övladlarının ad günü idi. Beş yaşlarını qeyd edirdilər. Elyarın doğmalarının gözündə batmış günəşin dumanlar arxasından, az da olsa, işartı halında olsa da, göründüyü gün idi. Sevinclə kədərin qarışdığı həmin gün Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin aparat işçiləri və Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin əməkdaşları da Vəliyevlər ailəsi ilə birlikdə oldular. Bu, sahə həmkarlar ittifaqının şəhid ailələrinə ilk ziyarəti deyildi. Respublika Komitəsinin Rəyasət Heyətinin şəhid ailələrinin himayədə olan şəhid övladlarının ad günlərinin qeyd edilməsi haqqında qərarına əsasən, Respublika Komitəsinin və üzv təşkilatlarının əməkdaşları 119 şəhid ailəsinin 128 övladına hər ay maliyyə yardımı göstərir. Şad, çətin günlərində onların yanında olurlar.**

Həmişə olduğu kimi bu dəfə də "qonaqlar", əslində "doğmalar" şəhid övladlarını əzizlədilər, necə deyərlər, qılıqlarına girdilər, güldürdülər, əyləndirdilər, həm də əyləndilər, hədiyyələrlə sevindirdilər. Hədiyyələr təkcə üçəmə deyil, şəhidin digər iki övladına da verildi.

**Görüşdə təbii ki, bu sevincli gündə ruhən övladlarının yanında olan Vətənimizin igid oğlu Elyar da xatırlandı. O Elyar ki, 2020-ci il oktyabrın 19-da Qubadlı uğrunda 7 saatdan çox davam edən ağır döyüşlərdə əsil qəhrəmanlıq nümunəsi göstərmiş, şərəflə Şəhidlik zirvəsinə ucalmışdı.**

Elyarın həyat yoldaşı Türkanə Vəliyeva əziz qonaqlara ailələrinə, övladlarına göstərdikləri diqqət üçün təşəkkür etdi.

**"Sizin kimi insanların mənəvi dəstəyinə həmişə ehtiyacımız var. Siz çox sağ olun ki, bir təşkilat olaraq, bu ehtiyacımıza biganə deyilsiniz", - dedi.**

# Yeni təşkilata dəstək verməyə çağırdı



**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin tabeliyində Satınalmaların Təşkili və Müqavilələrin İcrasına Nəzarət MMC-nin ilk həmkarlar ittifaqı təşkilatının təsis konfransı keçirilib.**

Təsis konfransında "Kənd-Qida-İş" Hİ Federasiyasının sədri Tofiq Quliyev çıxış edib. O, bütün fəaliyyət sahələri üzrə həmkarlar ittifaqlarının yaradılmasının vacibliyini diqqətə çatdırıb. Deyib ki, həmkarlar ittifaqları istehsal və qeyri-istehsal sahələrində çalışan işçilərin əmək, sosial hüquqlarını və mənafelərini müdafiə edən, müstəqil ictimai və qeyri-siyasi təşkilatdır. Tofiq müəllim işçiləri yeni yaradılan həmkarlar ittifaqı komitəsinin fəaliyyətinə hərtərəfli dəstək verməyə çağırıb.

**Sonra konfrans nümayəndələri səsvermə yolu ilə həmkarlar ittifaqı komitəsinin üzvlərini seçiblər, sədr vəzifəsinə isə Rəhman Hümmətovun namizədliyi irəli sürüldü və yekdilliklə dəstəkləndi.**

# Döyüş cəbhəsi inşaat meydanına çevrilir



**"İnşaat-İş" Həmkarlar İttifaqının İcraiyyə Komitəsinin növbəti iclası 10 Aprel - İnşaatçılar Gününə həsr olunmuşdu. İclası giriş sözü ilə açan ittifaq sədri Umud Hüseynov bu əlamətdar günün təsis olunma səbəbləri və tarixi barədə məlumat verdi. Dedi ki, hələ sovet hakimiyyəti dövründə ümummilli lider Heydər Əliyevin verdiyi sərəncamlar, tapşırıqlar əsasında Azərbaycanda geniş miqyasda sənaye obyektləri, yaşayış binaları inşa edilirdi. Tikinti işləri müstəqillik illərində daha böyük vüsət aldı. Məhz Respublika Prezidenti İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatlar nəticəsində Azərbaycan regionun ən qüdrətli sənaye mərkəzinə çevrilib. Paytaxtımız və digər şəhərlərimiz, qəsəbə və kəndlərimiz abadlığı, gözəlliyi ilə yerli əhalini, turistləri valeh edir.**

Bütün bunlar məhz inşaatçılarımızın fədakar əməyinin nəticəsidir. Biz, həmkarlar ittifaqı təşkilatı olaraq, çalışmışıq ki, bu fədakar insanlar rifah hallarını ölkəmizin tərəqqisinə verdikləri töhvələr müqabilində qura bilsinlər. Əmək şəraitləri təhlükəsiz olsun. Sosial hüquqları pozulmasın. Bu missiyamıza nail olmaq üçün daim işimizdə təkmilləşdirmə aparır, fəaliyyətimizi həmkarlar ittifaqı hərəkatının ən səmərəli təcrübələri əsasında qururuq.

Umud müəllim dedi ki, Qəhrəman Ordumuz 44 gün ərzində Qarabağ torpaqlarını düşmən işğalından azad etdi. İndi söz inşaatçılarımızındır. Döyüş cəbhəsi yerini indi inşaat meydanına verib. İnanırıq ki, Ordumuz kimi inşaatçılarımız da dövlətimizin bərpa, quruculuq layihələrinin uğurla həyata keçməsinə nail olacaqlar.

Tədbirdə digər çıxışlar da dinlənildi.

**Sonda əməkdə fərqlənən bir qrup inşaatçıya AHİK-in və "İnşaat-İş" Hİ-nin Fəxri fərmanları təqdim olundu.**

***Sevinc HÜSEYNOVA,***
***"İnşaat-İş" Hİ-nin mütəxəssisi***

# Müəllimlər müəllimi



**Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Tovuz Rayon Komitəsinin keçirdiyi növbəti tədbirə dəvət olunanların əksəriyyəti yaşlı insanlar idi. O insanlar ki, uzun illər rayon təhsilinin ağırlığını çiyinlərində daşımışdılar, respublika elminə, iqtisadiyyatına, mədəniyyətinə görkəmli xadimlər bəxş etmişdilər. Yeni müəllim kadrlarının hazırlanması işində əvəzsiz xidmətlər göstərmişlər. Başqa sözlə, müəllimlər müəllimi olmuşdular.**

Yaşlarının ahıl çağına baxmayaraq bu müəllimlər müəllimləri indi özlərini parta arxasında əyləşmiş şagird qismində hiss edir, sanki müəllim tənbehinə məruz qalacaqlarından çəkinirdilər. Axı onlar müəllimlər müəllimi olsalar da, qarşılarında stol arxasında kimya fənni üzrə sevimli müəllimləri Talıb Məmməd oğlu Əliyev əyləşmişdi.

Təxminən 60 il əvvəl sinif otağında gördükləri, dinlədikləri, qarşısında dərsə hazırlıqlarını nümayiş etdirdikləri, "qeyri-kafi" qiymət alanda ürəklərində qınadıqları, tərifli sözlərini eşidəndə uçmağa qanad axtardıqları Talıb müəllim yenə həmin hökmdə, həmin işıqlı simada onları nəzərdən keçirirdi. Bu nəzər altında hamı özünü, necə deyərlər, yığışdırmışdı.

**Rayon Komitəsinin sədri Flora Pənahova Talıb müəllimdən icazə alıb təbrik sözü söylədi. Dedi ki, Talıb müəllimin həyatı rayon təhsilinin önəmli bir hissəsinin tarixidir. Bu tarixi vərəqlədikdə elmə, təhsilə ehtirasın, məktəbə məbəd kimi baxışın, müəllim peşəsinə ehtiramın şahidi olursan. T.Əliyev, bildiyiniz kimi, rayonun Yuxarı Öysüzlü kəndində dünyaya göz açmışdır. Fitrən onda gördüklərini dərk etmək, onların mahiyyətinə varmaq istedadı olub. Bu istedad onda elmə həvəs oyadıb. Kitablara meyil salıb. Mütaliədən doymayıb. Müvəffəqiyyətlə Gəncə Pedaqoji İnstitutuna (indiki Gəncə Dövlət Universitetinə) qəbul olub. 1951-ci ildə bu ali məktəbi fərqlənmə diplomu ilə bitirib doğma rayonunun məktəblərində kimya fənnindən dərs deyib. Qazandığı elmi bilikləri peşəkarcasına şagirdlərinə öyrədib. Talıb müəllimin elm bulağından su içənlər arasında elmlər namizədi, elmlər doktoru, həkim kimi ad-san qazananları saymaqla qurtarmaz.**

Flora xanım dedi, bir pedaqoq kimi özüm-özümə sual vermişəm: Talıb müəllimin uğurlarının sirri nədə olub? Özü və yetirmələri ilə apardığım söhbətlərdən bu qənaətə gəlmişəm ki, uğurların açarı tədrisdə elmilik prinsipinə əsaslanması idi. Şagirdlərin yaddaşını deyil, idrakını inkişaf etdirməyi qarşısına məqsəd qoymuşdu. O, fənlərin ayrılıqda götürülüb öyrədilməsini özülsüz binaya bənzədirdi. Tədrisdə fənlərarası əlaqəni daha etibarlı, səmərəli sayırdı. Deyirdi ki, hər bir müəllim şagirdinin peşə təmayüllüyünü kəşf etməli, onu bu istiqamətdə hazırlamalıdır.

**F.Pənahova Talıb müəllimin həyatı, əmək fəaliyyəti haqqında bildiklərini də tədbir iştirakçıları ilə bölüşdü. Dedi ki, bu günlərdə Talıb müəllimin 95 yaşı tamam oldu. Maşallah, sağlamlığı, hərəkətləri, yaddaşı yerində, uşaqlıq, gənclik illərində baş verənləri dəqiqliklə xatırlayır, yeri düşəndə ətrafındakılara danışır.**

Tədbirdə iştirak edənlərdən bir neçə nəfər çıxış edərək müəllimləri haqqında xatirələrini söylədilər, ona cansağlığı arzuladılar.

**Talıb müəllim sayğıya, hörmətə görə sahə Hİ Rayon Komitəsinə, tədbir iştirakçılarına minnətdarlığını bildirdi.**

**Sonda T.Əliyevə Rayon Komitəsinin Fəxri Fərmanı və hədiyyələri təqdim olundu.**

# Yeni bazarlara çıxış üçün ixracatçılara vergi-gömrük güzəştləri, dövlət dəstəyi göstəriləcək

**Məlum olduğu kimi, Rusiya və Ukrayna arasında baş verən müharibə qeyri-neft məhsullarının ixracatçıları üçün bir sıra çətinliklərin yaranmasına səbəb olmaqdadır. Ukraynaya ixracımız fevralın sonlarından dayanıb. Azərbaycanla Ukrayna arasında ticarət dövriyyəsinin həcmi təxminən 950 milyon dollar təşkil edir ki, onun da 450 milyon dolları ixracdır. Azərbaycanın ixrac etdiyi məhsulların təxminən 40 faizi, yəni 180 milyon dolları qeyri-neft mallarıdır. Bu o deməkdir ki, artıq 2-ci aydır, yerli sahibkarlarımız Ukrayna bazarlarına mal çıxara bilmirlər. İxracatçılarımızın Rusiyaya mal satışında əsas problem isə rus rublunun ucuzlaşması səbəbindən əldə etdiyi gəlirlərin 2 dəfə azalmasıdır. Azərbaycan sahibkarları ildə Rusiya bazarlarına təxminən 1 milyard dollar həcmində qeyri-neft məhsulları satır ki, onun da 850 milyon dolları kənd təsərrüfatı mallarıdır. Hazırda rublun ucuzlaşması meyvə-tərəvəz satan sahibkarlara sərf etmir. Həmçinin, Rusiyaya qarşı tətbiq edilən iqtisadi sanksiyalar, Rusiya banklarının SWIFT-dən ayrılması və Qərbin digər məhdudiyyətləri azərbaycanlı iş adamlarının Rusiyadan pul köçürmələrinə, alqı-satqı zamanı bank hesablaşmaları aparmasına da mane olur. Hazırda məhsulların ixracı davam etsə də, alıcılıq baxımından ixracın azalması da müşahidə edilir.**

Xatırladaq ki, dövlət başçısı səviyyəsində müvafiq orqanlara ixracatçılarla birgə əməkdaşlığı artıraraq yeni bazar kanalları tapmaq tapşırılıb.



Ənənəvi bazarlarla yanaşı, tamamilə başqa coğrafiyalarda ixrac bazarlarının təşkili üçün yol xəritəsinin hazırlanması tövsiyə olunub. Bu məqsədlə yerli ixraçatçıların alternativ yollar və bazarlara çıxışını təmin etmək üçün yerli sahibkarlarla görüşlər keçirilir. Bu günlərdə Dövlət Vergi Xidmətində meyvə və tərəvəz istehsalı və ixracı ilə məşğul olan assosiasiyaların üzvləri, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) nümayəndələri ixrac prosesi, yerli fermerlərdən alınan məhsullara görə sənədləşmənin aparılması və bir sıra digər məsələlərlə bağlı mövcud vəziyyət ətrafında müzakirələr aparılıb. Bu istiqamətdə sahibkarlara dövlət dəstəyi və dövlət-biznes əməkdaşlığının inkişaf etdirilməsi təklif olunub. İxracatçılar Klubunda başqa bazarlara çıxış üçün ilkin "kəşfiyyat səfərləri"nin təşkili barədə məsləhətləşmələr keçirilib.

**Dövlət yerli ixracatçılara xarici ölkələrə mal satışında hansı köməklikləri nəzərdə tutur?**

AZPROMO-dan bildirildiyinə görə, ixracatçılara yeni bazarların tapılması və ya ixrac coğrafiyasının diversifikasiyası barədə müvafiq dəstək veriləcəkdir. Bununla bağlı hökumət səviyyəsində ixrac birlik və assosiasiyaları, biznes icmasına müxtəlif alternativləri sınaqdan keçirmək təklif olunur. Məsələn, ən geniş bazarlar sırasında Çin, Yaxın Şərq, Ərəb körfəzi regionu və Asiya mühüm yer tutur. Bu bazarların həcmi 10 milyardlarla dollardır. Azərbaycanın qeyri-neft ixracı 2 milyard dollardan çox deyil, ona görə də ixracatçıların həmin coğrafi ünvanlara istiqamətləndirilməsi üçün araşdırmalar və addımlar atılmalıdır. Bu prosesə AZPROMO və xarici ölkələrdə fəaliyyət göstərən ixrac missiyaları da kömək edə bilər. Onlar indi Azərbaycan məhsullarının digər ölkələrdə tanıdılması və ixracı istiqamətində daha fəal iş aparmalıdırlar. Onu da nəzərə almalıyıq ki, ixracatçılarımızın əsas bazarı olan Rusiyaya mal ixracı tamamilə qapanmayıb, bu bazara da çıxış imkanları qalır və müvafiq qərarlardan sonra həmin istiqamətdə ixracın bərpası mümkündür. Problem ondadır ki, Ərəb körfəzi ölkələrinin meyvə-tərəvəz bazarında biznes mühiti daha fərqlidir. Belə ki, Ərəb körfəzinin meyvə-tərəvəz idxalında ABŞ, Birləşmiş Krallıq, Çin, Braziliya, Tayland və qardaş Türkiyənin əhəmiyyətli payı vardır. Habelə, BƏƏ ilə Türkiyə arasında 2022-ci ilin əvvəlindən etibarən azad ticarət sazişinin bağlanılması müzakirə edilir. Həmçinin, bu regiona daşınma, nəqliyyat-logistika xərcləri də bahadır. Bu isə yerli sahibkarların başqa yerlərə mal ixracında gəlirlərinə təsir edəcəkdir. Ona görə də, onlara ixrac zamanı bir sıra vergi-gömrük güzəştlərinin verilməsi istisna olunmur. Xüsusilə ixrac təşviqi ilə bağlı hökumətin ödədiyi maliyyənin həcminin artırılması da gündəmə gəlib. Qeyd edək ki, bir neçə ildir ixracın stimullaşdırılmasında xüsusi əhəmiyyət kəsb edən ixrac təşviqi mexanizmi tətbiq olunur və mexanizm çərçivəsində şərab, pambıq ipliyindən məmulatlar, konservlər, sular, şirələr, fındıq və digər məhsullar üzrə Rusiya, ABŞ, Çin, Almaniya, Türkiyə, Belarus və s. ölkələrə ixrac müqabilində sahibkarlara stimul vermək üçün ödədiyi vergi-rüsumların bir hissəsi pul şəklində geri ödənilir. Vergi Məcəlləsinin 199.1.1-ci maddəsinə əsasən, investisiya təşviqi sənədini almış hüquqi şəxs və fərdi sahibkar 7 il müddətinə əmlak vergisini ödəməkdən azaddır. Həmçinin, həmin təşviqi sənədi almış sahibkar 7 il müddətinə torpaq vergisini ödəməkdən azad olunub. Bununla yanaşı, investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar təsdiqedici sənəd əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə 7 il müddətinə ƏDV-dən və gömrük rüsumundan tam azaddır. Yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlər almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin böyük bir hissəsi də dövlət büdcəsi hesabına ödənilir.

**Beləliklə, yeni bazar axtarışları çərçivəsində ixracatçılara motivasiya vermək üçün yuxarıda qeyd edilən bir sıra xərclərin, o cümlədən də, patent və vergi xərclərinin dövlətin hesabına təmin edilməsi, digər stimulların daha da artırılması indi daha çox aktuallaşıbdır.**

Hökumət yerli ixraca dəstək məqsədilə xarici ölkələrdə ixrac missiyalarının təşkilini, xarici bazarların araşdırılması və marketinq fəaliyyətini, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqini də artırmaq niyyətindədir. Bu məqsədlə Çin, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya, Pakistan, Əfqanıstan, Qətər və digər ölkələrdə yeni ixrac missiyaları təşkil ediləcəkdir. Bu ölkələrdə Ticarət evlərinin yaradılmasının sürətləndirilməsi də qərara alınıb.

**Beləliklə, istiqamət ənənəvi bazarlardan yeni bazarlara yönəlib. İxrac assosiasiyaları artıq xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqların ticarət nümayəndəlikləri tərəfindən satış bazarlarının monitorinqi, logistika mərkəzlərinin yaradılması ilə bağlı birgə axtarışlara başlayıb.**

**Elbrus CƏFƏROV**


Vahid Əhmədov

# Qida məhsullarının bahalaşacağı və bu sahədə qıtlıq...
## yayılan xəbərlər ajiotaj, yoxsa həqiqətdir?

**Son günlərdə gündəmi aktuallığı ilə zəbt edən məsələlərdən biri də ölkədə qida məhsullarının qiymət artımı və qıtlığın yaranacağı ehtimalı barədə yayılan xəbərlərdir. Əhali arasında və sosial şəbəkələrdə kifayət qədər geniş yayılan bu məlumatların həqiqətə nə dərəcədə uyğunluğu, o cümlədən bu sahədə bizi nələrin gözlədiyi barədə millət vəkili Vahid Əhmədov və iqtisadçı-ekspert Rəşad Həsənov məlumat verdi.**


Rəşad Həsənov

Millət vəkili V.Əhmədov dedi ki, söz-süz, dünyada gedən proseslər ölkəmizə də təsir edir. Lakin mən həmişə deyirəm Azərbaycanda qida sahəsində narahatlığa ehtiyac yoxdur. Dünyada ərzaq qıtlığı, bahalaşma, bu və ya digər problemlər yaşansa da, ölkəmizin bütün dünya ölkələri ilə ticarət əlaqələri qurmağa imkanı, kifayət qədər də maliyyə ehtiyatı var. Burada əsas problem süni qiymət artımıdır. Bunun qarşısının alınması isə olduqca çətindir. Ötən il bu sahədə minlərlə cərimələr yazıldı. İqtisadiyyat naziri Mikayıl Cabbarov məsələnin həlli ilə bağlı Antiinhisar və istehlak bazarına nəzarət dövlət xidmətinə xüsusi göstərişlər verib. Hazırda da çox ciddi monitorinqlər aparılır. Süni qiymət artımı ilə mübarizə aparılmalıdır ki, xaricdən idxal olunan məhsulların qiymətində artım olsa da, ən azından yerli məhsullarda buna imkan verilməsin. Çünki yaranan hər hansı gərgin vəziyyətdən istifadə etmək istəyənlər hər zaman olur.

**Vahid müəllim bildirdi ki, qida məhsullarında qıtlıq isə gözlənilmir. Müəyyən qədər məhsul istehsal edirik və ehtiyac olanları da hər hansı xarici ölkədən idxal etmək üçün lazımi qədər maliyyə vəsaitimiz var. Məsələn, taxıl hazırda Ukrayna, Rusiyada yoxdursa, Qazaxıstanda, Pakistanda var.**

***V.ƏHMƏDOV: "Süni qiymət artımı ilə mübarizə aparılmalıdır ki, xaricdən idxal olunan məhsulların qiymətində artım olsa da, ən azından yerli məhsullarda buna imkan verilməsin".***

İqtisadçı-ekspert Rəşad Həsənov mövzumuzla bağlı fikirləri bir qədər fərqli oldu. "Azərbaycanın strateji valyuta ehtiyatları bu təminatı müəyyən qədər gücləndirmək şəraiti yaradır. Amma reallıqları da nəzərə almaq lazımdır. Mən buna ajiotaj deməzdim. Çünki Azərbaycanın əsas xarici ticarət tərəfdaşı olan iki ölkə arasında konfilikt bu ölkələrdən idxal imkanını məhdudlaşdırır",- dedi. Qeyd etdi ki, Azərbaycana idxal olunan hər 100 dollarlıq məhsuldan 18 dolları Rusiyanın payına düşür. Yəni ölkəyə idxal olunan məhsulların 18 faizi Rusiyadan gətirilir. Bu isə pula çevriləndə təxminən 2 milyard dollar deməkdir. Rusiyadan Azərbaycana daha çox ərzaqlıq buğda, dərman preparatları, elektrotexnika avadanlıqları, avtomobil, bitki yağları və sair bu kimi məhsullar idxal olunur. Məsələn, ölkəyə idxal olunan 221 milyon dollarlıq dəyəri olan bitki yağlarının 48 faizi, yəni 107 milyon dolları Rusiya istehsalıdır. Bir sözlə, 50 faizə qədərini Rusiyadan aldığımız bu məhsulun qiymətində dəyişikliyin olmaması ehtimalı çox aşağıdır. Sahibkarlar bu qida məhsullarını ona görə Rusiyadan gətirirdi ki, qiymətlər uyğun, nəqliyyat xərcləri daha aşağı idi. Əlbəttə, indi alternativ bazarlara yönəlmə olacaq. Amma bu inflyasiyanın yüksəlməsinə gətirib çıxaracaq. Başqa bir məsələ də var. Rusiya bu məhsulları təkcə Azərbaycana deyil, dünya bazarına da çıxarırdı. Dünya bazarında hər 100 kiloqram taxılın 27-28 kiloqramı Rusiya və Ukraynadan alınırdı. İndi isə Ukraynada istehsal mümkün deyil. Rusiya da sanksiyaların təzyiqi altında ciddi risklə üzləşib. Əsas diqqəti daxili bazarı sabitləşdirməyə yönəldib. Buna görə də məhsulların, xüsusilə də strateji məhsulların çoxunun ixracına kvotalar və qadağalar qoyub. Hesab edirəm ki, bu proses bundan sonra daha da dərinləşəcək. Hətta vəziyyət belə davam edərsə, Rusiyada məhsuldarlıq kifayət qədər aşağı düşəcək. Çünki təkrar investisiya, texnologiyaların yenilənməsi imkanları məhdudlaşır.

**Ukraynaya gəlincə, Azərbaycana gətirilən hər 100 kiloqram kərə yağının 21 kiloqramını bu ölkə təmin edirdi. Eyni zamanda ölkəyə idxal olunan quş ətinin 100 kiloqramının 64 kiloqramı Ukraynanın payına düşürdü. Sadaladığım bu məhsullar hər iki ölkədən gəlməyəcək və nəticədə bu məhsulların çatışmazlığı, qıtlığı, bahalaşması gözlənilndi. Dünya bazarlarına idxal olunan məhsulların iki ölkə fonunda azalması qlobal səviyyədə bahalaşmaya gətirib çıxaracaq. Məsələn, iki ölkə arasında başlayan müharibənin ilk iki həftəsində dünya bazarında taxılın qiymətində 40 faiz bahalaşma qeydə alındı.**

***R.HƏSƏNOV: "Dünya bazarlarına idxal olunan məhsulların iki ölkə fonunda azalması qlobal səviyyədə bahalaşmaya gətirib çıxaracaq".***

**Yəni bütün bunlar onu deməyə əsas verir ki, əslində Azərbaycanda qiymət bahalaşması, inflyasiya təzyiqlərinin artması ilə bağlı bir risk var. Eyni zamanda, təbii ki, hətta müəyyən məhsul növləri üzrə qıtlıq baş verə bilər. Çünki Azərbaycanın istehlak səviyyəsi nisbətən daha aşağıdır. Bu imkan yaradır ki, strateji valyuta ehtiyatlarından və sair vəsaitlərdən istifadə etməklə istehlakçıların müəyyən qədər maliyyə təminatını gücləndirmək yolu ilə bu təzyiqləri qismən neytrallaşdırmaq mümkün olsun. Nəzərə almaq lazımdır ki, Azərbaycan bu təzyiqləri təkcə Rusiya, Ukrayna münasibətləri fonunda görmür, bahalaşma prosesi xeyli əvvəl başlamışdı. Ölkədə antiinflyasiya tədbirləri ilə bağlı fəaliyyət fevral ayının əvvəlinə təsadüf edirdi. Eyni zamanda istehlak səbətinə daxil olan məhsulların qiymət artımları və onların istehsalının, bütün istiqamətlərdə idxalının dəstəklənməsi kimi məsələlər gündəmdə idi. Bütün bunlar onu göstərir ki, belə risk var idi. Ümid edirəm ki, hökumət bu riskləri neytrallaşdırma istiqamətində real və zamanında addımlar atacaq.**



**Əsli ƏHMƏDOVA**

---

# Ərzaq təhlükəsizliyi məsələsi ölkənin həm də milli təhlükəsizlik məsələsidir


Aydın Hüseynov

**"Pandemiyadan sonra meydana çıxan bir sıra problemlər, iqlim dəyişiklikləri, o cümlədən, Rusiya tərəfindən Ukraynada aparılan müharibə dünyada ərzaq qıtlığına səbəb oldu. Dünyada müşahidə olunan indiki mürəkkəb dönəmdə əsas ərzaq məhsulları ilə təminata dair zəruri tədbirlər həyata keçirilməsə, bir müddət sonra hansısa arzuolunmaz durum yarana bilər". Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov ölkəmizdə əsas ərzaq məhsulları ilə bağlı ehtiyatın formalaşdırılması və ərzaq ehtiyatlarının artırılması istiqamətində görülən tədbirlər haqda qəzetimizə verdiyi müsahibəsində bildirdi. Dedi ki, Nazirlər Kabinetinin tapşırığına əsasən, müvafiq hökumət qurumları daxili bazarın qorunması istiqamətində koordinasiyalı şəkildə zəruri addımlar atmaqdadır. İlk növbədə, daxili bazarda ehtiyatların dayanıqlılığını təmin etmək üçün minimum istehlak səbətinin tərkibinə daxil olan bir sıra əsas ərzaq mallarının və onların istehsalında istifadə olunan malların ölkə ərazisindən aparılması tənzimlənir: "Əsas hədəf daxili bazarın və təminatın sabitliyinin qorunmasıdır. Bu cür önləyici tədbirlərin görülməsi ölkəmizdə ən zəruri qida məhsulları ilə bağlı qıtlığın bəri başdan sığortalanması və təminatının möhkəmləndirilməsi deməkdir".**

**A.Hüseynov: "Hökumətin bu istiqamətdə qəbul etdiyi qərarlar və atdığı təxirəsalınmaz addımlar ərzaq təminatı ilə bağlı önləyici və təminedici siyasət olmaqla, mürəkkəb qlobal şəraitdə Azərbaycanın ərzaq təhlükəsizliyinin qorunmasında öz müsbət təsirlərini göstərəcək".**

A.Hüseynov bildirdi ki, bu tənzimləmə mexanizmi heç də ixracı məhdudlaşdırmaq məqsədi güdmür. Əksinə, son 2 ayda qeyri-neft ixracımız artıb və bu proses davam edəcək. Burada əsas məqsəd ixracatçı şirkətləri zəruri qida məhsullarının ixracında ilk növbədə daxili bazarı təmin etdikdən sonra ixracata üstünlük verməyi motivasiya etməkdir. Buna görə də, ilk növbədə yerli qida bazarı 100 faiz təchiz olunduqdan sonra müvafiq qurumların apardığı monitorinq və nəzarət mexanizmi sayəsində ixraca dair qərarlar qəbul edilir. Belə ki, ərzaq mallarının və onların istehsalında istifadə olunan malların gömrük ərazisindən aparılması ölkədə mövcud olan ehtiyatlar və əhalinin müvafiq mallar ilə qısamüddətli dövrdə təminatı ilə bağlı proqnoz əsas götürülməklə müvafiq qurumların müsbət rəyi əsasında həyata keçiriləcək. Hökumətin bu istiqamətdə qəbul etdiyi qərarlar və atdığı təxirəsalınmaz addımlar ərzaq təminatı ilə bağlı önləyici və təminedici siyasət olmaqla, mürəkkəb qlobal şəraitdə Azərbaycanın ərzaq təhlükəsizliyinin qorunmasında öz müsbət təsirlərini göstərəcək".

İqtisadçı-ekspert Eldəniz Əmirov dedi ki, bütün ölkələrdə ərzaq təhlükəsizliyi deyilən bir anlayış və bu ərzaq təhlükəsizliyinin də həyata keçirilməsi üçün bir strategiya var: "Bu strategiyaya uyğun olaraq risklərin qarşılanması üçün mütləq şəkildə ehtiyatların toplanmasına, yığılmasına və idarə olunmasına ehtiyac vardı. Yəni, belə deyək, müəyyən məhsullara, ələlxüsus da istehlak səbətinə daxil olan məhsullar üzrə müəyyən bir dövr ərzində hər hansı bir riskli faktor yaranarsa, yəni fors-major hallarda (zəlzələ, müharibə, qəfil iqlim dəyişikliyi) idxal istiqamətlərində olan istehsal səviyyəsinin kəskin azalması baş verə bilər. Bu zaman ərzaqla bağlı böhranın yaşanmaması üçün mütləq şəkildə ərzaq ehtiyatlarının müəyyən qısa bir dövr üçün, heç olmasa, toplanmasına və idarə olunmasına ehtiyac var. Bu, bütün ölkələrdə bu cür həyata keçirilir. Sadəcə olaraq, bəzi ölkələrdə bu məsələyə daha strateji yanaşılır, daha geniş ehtiyatlardan istifadə olunur. Azərbaycan da bu ölkələrdəndir ki, valyuta ehtiyatlarının mövcudluğu ərzaq ehtiyatlarının toplanmasına, ərzaq təhlükəsizliyinin daha rahat həyata keçirilməsinə imkan verir. Qısa şəkildə desək, bu addımın məqsədi, fəlsəfi, prinsipial əhəmiyyəti mümkün risklərin sığortalanması mahiyyətini daşıyır".


Eldəniz Əmirov

**Eldəniz müəllim dedi ki, hazırkı böhran şəraitində bu məsələyə xüsusi yanaşılması ərzaq ehtiyatlarının tükənməməsi və ehtiyatların daha da genişləndirilməsi üçün atılan bir addımdır. Bu da, bilavasitə, ərzaq ehtiyatlarının tərkibində olan məhsulların idxalının səviyyəsinin artırılması, eyni zamanda da həmin ehtiyatların tərkibində olan ərzaqların ixracının nəzarətinin həyata keçirilməsi şəklində həyata keçirilir.**

**E.Əmirov: "Hazırkı böhran şəraitində bu məsələyə xüsusi yanaşılması ərzaq ehtiyatlarının tükənməməsi və ehtiyatların daha da genişləndirilməsi üçün atılan bir addımdır".**

**Bununla bağlı Nazirlər Kabineti bir müddət əvvəl 28 adda minimum istehlak səbətinə daxil olan məhsulların ixracının İqtisadiyyat Nazirliyi tərəfindən tənzimlənməsi ilə bağlı qərar imzalamışdır. Ehtiyatlara gündəlik qidalanmaq, eyni zamanda yaşamın təmin olunması üçün zəruri olan məhsullar daxildir.**

"Neçə müddətlik məhsul ehtiyatının yığılması nəzərdə tutulur?" sualını cavablandıran ekspert bildirdi ki, heç bir ölkədə ərzaq təhlükəsizliyi ilə bağlı qida ehtiyatları açıq şəkildə elan olunmur: "Çünki ərzaq təhlükəsizliyi məsələsi ölkənin həm də milli təhlükəsizlik məsələsidir. Ona görə də bu rəqəmlər, məsələn, filan ölkənin üç aylıq, ya altı aylıq ərzağı, buğdası var deyə açıq statistik şəkildə göstərilmir. Sadəcə olaraq, müəyyən formada proqnozlaşdırıla bilər. Məsələn, təxminən 250-280 günə yaxın ölkənin taxıl ehtiyatları ilə bağlı bir strategiyası var. Yəni heç bir yerdən taxıl gəlməsə, ölkədə istehsal olunmasa, taxıl ehtiyatları yalnız 7-8 ay ərzində ölkənin qidalanması üçün yetərlidir. Sadəcə olaraq, növbəti istehsal və idxal proseslərində toplanmış ehtiyatlar yenilənir. Sadə dillə desək, yəni nə həcmdə götürülürsə, o həcmdə də bərpa olunur".

**E.Əmirov onu da qeyd etdi ki, əgər toplanan məhsullara ehtiyac yaranmasa, həmin məhsullar yenidən istehlak üçün istifadə olunur: "Çünki hər hansı məhsulun, ələlxüsus da qida məhsulunun bir yararlılıq müddəti var. Ehtiyac yaranmadığı təqdirdə, bayaq da dediyim kimi, bazarlara satış üçün çıxarıla bilər".**

**Aliyə SƏMƏDOVA**

# Azərbaycan beynəlxalq hüquq normaları çərçivəsində addımlar ata bilər

**-Aprelin 11-də Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında baş tutmuş birbaşa telefon danışığını aprelin 6-da Brüsseldə əldə olunmuş üçtərəfli razılaşmanın reallığa çevrilməsi istiqamətində atılan addım adlandırmaq olarmı? Bu sualla Milli Məclisin deputatı Naqif Həmzəyevə və politoloq İlyas Hüseynova müraciət etdik.**

Naqif müəllim Brüssel görüşünün çox məsuldar və yaddaqalan olduğunu vurğuladı. Əlavə etdi ki, görüşün gündəliyi Azərbaycan tərəfindən müəyyənləşdirilib. Cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində qarşı tərəfi danışıqlar masasına oturmağa məcbur etdik. Avropa İttifaqı bu prosesdə məsuliyyəti öz üzərinə götürür və tərəflər arasında sülhün əldə olunmasına öz töhfəsini vermək istəyir.



Əlbəttə, sülh müqaviləsinin imzalanması o qədər də asan proses olmayacaq. Çünki Ermənistanda hələ də revanşist fikirləri dəstəkləyən siyasi qüvvələr var. Həmçinin Ermənistan ordusunun içində də bu revanşistləri dəstəkləyən hərbçilər çoxdur. Bu baxımdan da istənilən halda Azərbaycan sonuna qədər prosesi tam nəzarətdə saxlamalıdır. Hətta sülh anlaşması imzalansa belə, ermənilər tərəfindən hər an təxribat baş verməsi ehtimalını unutmamalıyıq.

**Millət vəkili onu da qeyd etdi ki, Azərbaycan sərhəd boyu silahlı qüvvələrini tam olaraq yerləşdirib və rus sülhməramlılarının nəzarətində olan ərazilərdəki əməliyyat şəraiti də Azərbaycan silahlı qüvvələrinin nəzarətindədir. Hansısa bir təxribatın, xoşagəlməz hadisənin qarşısı dərhal alınacaq.**

Faktiki olaraq görüşün gündəliyi Azərbaycanın diktəsi ilə və bizim təklif etdiyimiz maddələr əsasında formalaşıb. Həmin maddələrdə əksini tapmış öhdəliklərin yerinə yetirilməməsinin məsuliyyəti məhz Ermənistanın üzərinə düşür. Ermənistan bu öhdəlikəri yerinə yetirəcəyi halda faktiki sülhə nail ola bilərik.

**İlyas Hüseynov** isə bildirdi ki, Brüssel görüşü çox mühüm siyasi nəticələr ilə yadda qaldı. Eyni zamanda qeyd etmək lazımdır ki, dekabrın 14-də keçirilən görüşdə də münasibətlərin normallaşması istiqamətində mühüm razılıqlar əldə olunmuşdu. Həmin razılaşmaların davamı olaraq Azərbaycan 5 maddəlik təklif irəli sürmüşdü. Bu təkliflər beynəlxalq hüququn fundamental norma və prinsiplərinə söykənir və dövlətlərarası münasibətləri tənzimləyən ən ideal variantlardır. Həmçinin münasibətlərin fundamental bazası rolunu oynaya bilər.

**Politoloq bildirdi ki, 6 aprel Brüssel sülh gündəliyinə uyğun olaraq aprelin sonuna qədər Ermənistan və Azərbaycan arasında sərhədlərarası komissiya yaradılmalıdır. Fikir ayrı-seçkiliyi, ziddiyyətlərin aradan qaldırılması və xalqlar üçün sülh, təhlükəsizlik zəminində inkişafın təşfiq edilməsi ən mühüm prioritet hesab olunmalıdır. Lakin biz ötən dövrlərdə müxtəlif formatlarda keçirilmiş görüşlərdə Ermənistanın üzərinə götürdüyü məsuliyyətlərdən boyun qaçırmasına dəfələrlə şahidlik etmişik.**

26 noyabr Soçi görüşündə imzalanan sənədə əsasən, ilin sonuna qədər sərhədlərarası komissiya formalaşdırılmalı idi. Lakin biz artıq 2022-ci ilin aprel ayını yaşayırıq və sərhədlərarası komissiya formalaşdırılmadı. Ermənistanın qeyri-konstruktiv münasibəti səbəbindən bu prosesdə irəliləyiş əldə etmək mümkün olmadı. Eyni zamanda bəyannamələrin reallığa çevrilməməsi də sərhəddə, davamlı olaraq, ermənilər tərəfindən atəşkəs rejiminin pozulmasına gətirib çıxaran amillərdəndir.

**16 noyabr 2021-ci il tarixində hərbi təxribatın baş verməsi göstərir ki, Ermənistan vaxtaşırı sülhü pozmaq cəhdlərinə əl atır. Sərhədlərin delimitasiya edilməməsi Ermənistan üçün sülhü təhdid etməyə imkanlar yaradır. Bu baxımdan məhz sabit və təhlükəsiz vəziyyətin təmin edilməsi üçün sərhədlərin delimitasiyasının həyata keçirilməsi vacibdir. Həmçinin Ermənistan da bu addımları təşfiq etməli və sülhyaratma prosesinə müsbət töhfələr verməlidir. Əks təqdirdə eskolasiya riskləri artır və Azərbaycan birtərəfli qaydada üçtərəfli bəyanatın maddələrini imitasiya etmək məcburiyyətində qalır. Bu xüsusda üçtərəfli bəyanatın 4-cü maddəsinin icra edilməməsi regionda sülhə böyük təhdid törədir və bu təhdidləri minimallaşdırmaq üçün Azərbaycan beynəlxalq hüquq normaları çərçivəsində addımlar ata bilər.**

**Gülöyşə MƏMMƏDLİ**

# Yerli özünüidarəetmə orqanlarının fəallaşması qaçınılmazdır



**Bələdiyyələrlə bağlı son vaxtlar diskussiyalar aparılır. 23 ildir yaradılmış yerli özünüidarəetmə orqanı olan bələdiyyələrin fəaliyyəti, daha doğrusu qanunla tənzim olunmuş vəzifələrini icra edə bilməmələri narahatlıq doğurur. Narahatlığın səbəblərinə yanaşmalar müxtəlifdir. Mütəxəssislərin əksəriyyəti səbəbi icra hakimiyyətlərində görürlər. İddia edirlər ki, məhz onlar inzibati ərazidə bütün səlahiyyətləri mənimsədiklərindən bələdiyyələr formal quruma çevrilmişdir. Millət vəkili Vüqar Bayramovun isə problemə baxışı fərqlidir. Deyir ki, bələdiyyələrin maliyyə imkanlarının genişləndirilməsi, o cümlədən bütövlükdə bələdiyyə sisteminin təkmilləşdirilməsi ilə bağlı digər inkişaf etmiş ölkələrin təcrübələrinə əsaslanaraq mütəmadi olaraq təkliflər səsləndiririk. Bələdiyyələrin imkanlarının genişləndirilməsi və institut kimi gücləndirilməsi əsas hədəflərdən biridir. Lakin bu istiqamətdə görülən işlərin sistemli şəkildə aparılması önəmlidir. Hesab edirəm ki, ilk növbədə bələdiyyələrin səlahiyyətlərinin və maliyyə imkanlarının genişləndirilməsi üçün bələdiyyələrin təmərküzləşməsi və birləşdirilməsi məsələsinə baxılmalıdır. Məsələn, Çexiyada 205, Bolqarıstanda 265, Ruminyada 103, qardaş Türkiyədə 1389 bələdiyyə fəaliyyət göstərir. Azərbaycanda fəaliyyət göstərən bələdiyyələrin sayı isə (1606) əksər Mərkəzi və Şərqi Avropa ölkələri ilə müqayisədə daha çoxdur. Bu isə onların fəaliyyətlərinin səmərliliyinə və eləcə də şəffaflığına təsir göstərir.**

**V. Bayramov:** *“Bələdiyyələrin imkanlarının genişləndirilməsi və institut kimi gücləndirilməsi əsas hədəflərdən biridir. Bu istiqamətdə görülən işlərin sistemli şəkildə aparılması önəmlidir”.*

V. Bayramov qeyd etdi ki, bu ilin dövlət büdcəsindən bələdiyyələrə 11 mln. manata yaxın vəsaitin ayrılması nəzərdə tutulur. Bu məbləğ 1 606 bələdiyyə arasında bölünsə, hərəsinə orta hesabla illik 6 min 800 manat, aylıq isə 560 manat düşəcək. Bələdiyyələrin kənar maliyyə mənbələrinin məhdud olduğunu nəzərə aldıqda bu məbləğ onların institut kimi formalaşmasını və inkişafını xüsusi təşviq etmir. Bu baxımdan, həmin vəsaitin məbləğinin artırılması məqsədəuyğun olardı.

**Qeyd etmək istərdim ki, bələdiyyələrin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərin sayında artımlar müşahidə olunub. Etiraf etmək lazımdır ki, xüsusən bölgələrdə nəzarət mexanizmləri güclü formalaşdırılmayıb. Bu isə həmçinin ondan xəbər verir ki, bələdiyyələrin fəaliyyətinin inkişafına, maliyyə imkanlarının tətbiqinə nail olunduqdan sonra bu sahədə ictimai nəzarətin də gücləndirilməsinə ehtiyac yaranacaq.**

**Hüquqşünas Əkrəm Həsənov** məsələnin qanuni tərəflərinə aydınlıq gətirdi. Dedi ki, Azərbaycan qanunvericiliyi bu məsələdə çox ziddiyyətlidir: “Bələdiyyənin işi ondan ibarətdir ki, yerləşdiyi ərazinin daxili özünüidarəetməsini həyata keçirsin. Qanunvericilikdə həmin ərazilərdə yerli icra hakimiyyəti orqanının səlahiyyətləri nəzərdə tutulmayıb. Lakin praktikadan görürük ki, bələdiyyələr faktiki olaraq yerli icra hakimiyyəti orqanlarından asılı vəziyyətdədir. Bu, qanuna əsasən düzgün deyil. Yerli icra hakimiyyəti orqanlarının səlahiyyətləri Prezidentin fərmanı əsasında, bələdiyyələrin vəzifələri isə qanunla tənzim olunur. Yerli icra hakimiyyəti orqanları Prezidentin yerlərdəki nümayəndələridir. Hazırda icra hakimiyyətinin gördüyü əksər işlər, tikinti, təmir, torpaq barədə qərarlar və sairə bütövlükdə bələdiyyələrə aiddir.

## Problemlər və çıxış yolları

**Hüquqşünas qeyd etdi ki, bələdiyyələr əslində yerlərdə ali idarəetmə orqanı olmalıdır: “Hesab edirəm ki, ölkədə idarəetmə 3 pilləli həyata keçirilməlidir. Birinci pilləyə çoxmərtəbəli binalarda yaşayan sakinlərin özünü idarəetməsi daxildir. Kommunal və digər xərclərin miqdarını özləri müəyyənləşdirməlidir və yığılan məbləğ şəffaf şəkildə binanın saxlanılmasına sərf edilməlidir. İkinci pillə bələdiyyədir. Bir neçə binanın toplumuna bu qurum nəzarət etməlidir. Bələdiyyələrin ən böyük problemi yerli vergini yığa bilmir. Əhalinin çoxu vergini ödəmir ki, bələdiyyədən xidmət görmürəm. Amma binaları MTK-lar deyil, mənzil mülkiyyətçiləri idarə etsəydi, mərkəzləşdirilmiş qaydada pulu bələdiyyəyə keçirib xidməti də bələdiyyədən tələb edərdilər. Üçüncü pillə isə dövlət qurumları tərəfindən idarəetmədir. Bunu da dövlətin yerlərdəki orqanları həyata keçirir. Hüquqşünasın qənaətinə görə yerli özünüidarəetmə orqanlarının fəallaşması qaçınılmazdır. İnkişaf etmək istəyiriksə, başqa yol yoxdur.**

**Ə.Həsənov:** **“Bələdiyyənin işi ondan ibarətdir ki, yerləşdiyi ərazinin daxili özünüidarəetməsini həyata keçirsin. Qanunvericilikdə həmin ərazilərdə yerli icra hakimiyyəti orqanının səlahiyyətləri nəzərdə tutulmayıb”.**

**Əsli TELMANQIZI**

Beynəlxalq

# Dənizçilər üçün layiqli əməyin təmini



**Beynəlxalq Əmək Təşkilatının (BƏT) Cenevrədəki mənzil-qərargahında Dəniz Əmək Konvensiyasının (MLC, 2006-cı il) 100-cü ratifikasiyası xüsusi mərasimlə qeyd olunub.**

Xatırladaq ki, Dəniz Əmək Konvensiyası 2006-cı il fevralın 23-də BƏT-in Cenevrədə keçirilən Baş Konfransının 94-cü sessiyasında qəbul edilib.

Dünyanın ümumi yükdaşıma tonnajının 96 faizindən çoxu hazırda beynəlxalq səviyyədə razılaşdırılmış bu standartla əhatə olunur. Və bu standart dünyanın dənizçilər üçün işçi qüvvəsi təmin edən bir çox ölkəsinə aiddir.

Oman Konvensiyanı ratifikasiya edən BƏT-in 100-cü üzv dövləti idi. Omanın səfiri İdris Əbdül Rəhman Əl Həcəri ratifikasiya sənədlərini martın 29-da rəsmi olaraq təqdim edib. O deyib ki, bu ratifikasiya ölkəmizin dənizçilər üçün layiqli əməyi təmin etmək məqsədilə konvensiyanın müddəalarına riayət etmək öhdəliyini bir daha təsdiqləyir. Biz dənizçilərin əmək hüquqlarının qorunması üçün səylərimizi əsirgəməyəcəyik.

**Ratifikasiya sənədini alan BƏT-in Baş direktoru Qay Rayder bunu əlamətdar hadisə adlandırıb: “Bir dəniz dövləti kimi qədim ənənələrə malik olan Oman Sultanlığının regionun digər ölkələrinə necə yol göstərdiyinin şahidi olmaqdan çox məmnunam. Həqiqətən, Oman dənizçilər üçün layiqli iş və gəmi sahiblərinə ədalətli rəqabəti təmin etmək məqsədilə qlobal səylərə qoşulan Fars Körfəzi ölkələrinin Əməkdaşlıq Şurasının ilk üzvü olur. Bu ratifikasiya qlobal bir mərhələdir. Dənizçilərin, gəmi sahiblərinin və hökumətlərin cəsarətinin təntənəsidir. Hansılar ki, 2006-cı ildə əvvəllər qəbul edilmiş 70 konvensiya və tövsiyələri birləşdirəcək BƏT konvensiyası haqqında düşünmüşlər. O vaxtdan bəri Dəniz Əmək Konvensiyası dəniz sahəsi üçün ümumdünya məlumat kitabçası və beynəlxalq dəniz rejiminin dördüncü sütununa çevrildi”.**

2006-cı ilin fevralında BƏT-ə üzv dövlətlər tərəfindən qəbul edilmiş konvensiya müasir iş və yaşayış şəraitini artıq əks etdirməyən, ratifikasiya səviyyəsi aşağı olan və ya qeyri-adekvat icra sistemlərinə malik olmayan çoxlu sayda mövcud sahə əmək standartını birləşdirdi. Bu vacib sənədlərin bir Konvensiyada birləşdirilməsi ölkələr üçün bütün dünyada vahid sahə norma və standartlarını tənzimləməyi və tətbiq etməyi asanlaşdırır.

**Beynəlxalq Nəqliyyat İşçiləri Federasiyasının Baş katibi Stiven Kotton və Beynəlxalq Gəmiçilik Palatasının Baş katibi Qay Platten də ratifikasiyanın vacibliyini vurğulayıblar. Konvensiyanı imzalayan bütün ölkələrə minnətdarlıq ifadə olunub və digər dövlətləri də bu mühüm və tarixi sənədi tezliklə ratifikasiya etməyə çağırıblar.**

# Maaşların artırılmasını tələb ediblər




**Aprelin 6-da polis Salonikidə keçirilən mitinqi dağıtdıqdan və fəalları həbs etdikdən sonra həmkarlar ittifaqlarının və tələbələrin kütləvi etirazları Yunanıstanı bürüdü. Səkkiz nümayişçi (o cümlədən media nümayəndəsi) polis tərəfindən saxlanılıb, bir nəfər ağır yaralanıb və xəstəxanaya yerləşdirilib. Bundan sonra Salonikidə istintaq təcridxanası yaxınlığında keçirilən aksiya aprelin 6-dan 7-nə qədər dayanmayıb və tələbələr yoldaşlarının azadlığa buraxılmasını tələb edərək küçələrdə nəqliyyatın hərəkətini kəsiblər.**

Xatırladaq ki, aprelin 6-da Yunanıstanın aparıcı həmkarlar ittifaqlarının elan etdiyi 24 saatlıq ümumi tətil səbəbindən Afinanın demək olar ki, bütün ictimai nəqliyyatının fəaliyyəti iflic olub. Etiraz aksiyası dövlət sektoru həmkarlar ittifaqının Ali Şurası və özəl sektorun həmkarlar ittifaqı birliyi - Yunanıstanın Ümumi Əmək Konfederasiyası tərəfindən təşkil olunub. Etirazçılar qiymətlərin bahalaşmasından narazı olub və maaşların artırılmasını tələb ediblər.

**Materialları hazırladı: Azər MUSTAFAYEV**

## NEKROLOQ



**Azərbaycan həmkarlar ittifaqlarına ağır itki üz vermişdir. Konfederasiyanın Sağlamlığın mühafizəsi və sosial təminat şöbəsinin müdiri *Əli Abbas oğlu Əsgərov* uzun sürən ağır xəstəlikdən sonra ömrünün 67-ci ilində vəfat etmişdir.**

Əli Əsgərov 1955-ci il avqust ayının 15-də anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1978-ci ildə müalicə işi üzrə həkim ixtisasına yiyələnmişdir. 1979-cu ildən 2011-ci ilədək Naxçıvan Muxtar Respublikasının müxtəlif xəstəxanalarında həkim kimi fəaliyyət göstərmiş, öz peşəsini şərəflə yerinə yetirmişdir. 2013-cü ilin dekabr ayından 2018-ci ilin oktyabr ayınadək Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2 №-li sosial ekspert komissiyasının ekspert-həkim cərrah vəzifəsində işləmişdir. Əli Əsgərov tibb üzrə fəlsəfə doktoru idi.

1998-ci ildən YAP-ın üzvü olan Əli Əsgərov YAP Naxçıvan şəhər təşkilatı idarə heyətinin və siyasi şurasının üzvü olmuşdur.

4 mart 2019-cu il tarixdən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında işə başlayan Əli Əsgərov AHİK-in Sağlamlığın mühafizəsi və sosial təminat şöbəsinin müdiri kimi həmkarlar ittifaqı üzvlərinin sağlamlığının müdafiəsinə və həmkarlar ittifaqı kadrlarının peşəkarcasına yetişdirilməsinə diqqətlə yanaşmış, işlədiyi kollektivdə böyük rəğbət qazanmışdır. Onun əmək fəaliyyəti dövlətimiz və AHİK tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 iyun tarixli sərəncamı ilə "Tərəqqi medalı", AHİK İcraiyyə Komitəsinin 2021-ci 28 yanvar tarixli qərarı ilə "Azərbaycan Həmkarlar İttifaqları 115 il" yubiley döş nişanına layiq görülmüşdür.

***Əli Abbas oğlu Əsgərov* Azərbaycan həmkarlar ittifaqlarını layiqincə təmsil etmiş, təşkilatçılığı və səmimiliyi ilə seçilmişdir. Əli Əsgərovun xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.**

**Allah rəhmət eləsin!**

**AHİK-in İcraiyyə Komitəsi**

# Gənc mütəxəssislərin təqdimatı dinlənildi




Aprelin 4-də Beynəlxalq Əmək Təşkilatının İdarəetmə Orqanının İşçi Qrupu tərəfindən təşkil olunan "Peşəkar təlim və davamlı təhsil: Həmkarlar ittifaqı siyasətinin, strategiyasının və fəaliyyətinin inkişafı" mövzusunda onlayn kurslara star verilib. Aprelin 29-na qədər davam edəcək onlayn kurslarda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının üzv təşkilatlarında çalışan fəal gənclərin iştirakı nəzərdə tutulub. Onlayn kursların gündəliyində gənc mütəxəssislərin mövzu ətrafında təqdimatları, daha sonra qrup şəklində müzakirələri və iştirakçıların çıxışları qeyd olunub.

# *Əgər onlar baş verənlərlə razı deyillərsə,*

## hüquqlarını məhkəmə yolu ilə həll edə bilərlər



**Martın 30-da Mənzil Dövlət İnşaat Agentliyi (MİDA) Yasamal Yaşayış Kompleksində güzəştli mənzillərin onlayn satışını həyata keçirdi. 9 min nəfərə yaxın iştirakçı bu prosesin qeyri-şəffaf keçirildiyini iddia edir. Agentliyin verdiyi statistikaya görə, mənzillərin seçimi 6-cı saniyədən sonra başlayıb. 10-12-ci saniyələrdə, hətta 11-ci dəqiqədə belə seçim davam edib. Ancaq iştirakçılar iddia edirlər ki, satışa çıxarılan 442 mənzilin satışı 4-5 saniyədən sonra tamamlanıb.**

**Bəs, görəsən, nə baş verib? Həqiqətən də evlərin 4-5 saniyə ərzində satışı mümkündürmü?**

Bu suallara cavab tapmaq üçün Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüzə və hüquqşünas Əkrəm Həsənova müraciət etdik.

Osman müəllim bildirdi ki, satışdan öncə iddiaçıların onlayn satış prosesini test etməsi üçün bir ay müddətində demo versiya (nümayiş versiyası) aktiv olunub: "Fikrimcə burada düşündürücü məqamlar var. Böyük ehtimalla, MİDA bot, robot, müxtəlif süni metodlarla sistemə girənlər üçün qabaqcadan təhlükəsizlik mexanizmləri hazırlayıb. Düşünmək olar ki, MİDA-nın "Güzəştli mənzil" sisteminin təhlükəsizliyinə cavabdeh olanlar demo versiyanı buraxmaqla həm də oradakı statistikadan istifadə ediblər. Yəni demoda test edənlərin zəif nöqtələrini incələyərək, süni üsullarla 2-5 saniyə ərzində mənzil seçmə metodlarını analiz edərək ona qarşı real versiyada tədbirlər görüblər, kodlarla əsas versiyanın kodlarını dəyişiblər. Belə çıxır ki, MİDA demonu həm də sistemin zəif nöqtələrini analiz etmək üçün buraxıbmış. Əlbəttə, bütün bunlar statistikanın ilkin analizindən sonra əldə etdiyim nəticələrdi. Fikrimcə, MİDA hər bir iddiaçının satışla bağlı real vəziyyətini əks etdirən log faylları açıqlamalı, botlarla bağlı məsələyə aydınlıq gətirməli, "Güzəştli mənzil" sisteminin botlara qarşı nə dərəcədə güvənli olmasına ağlabatan bir açıqlama verməli, ümumiyyətlə ictimai əhəmiyyət kəsb edən bütün məlumatları açıqlamalıdır.

**Onu da qeyd edim ki, əvvəllər mən də bir neçə dəfə müşahidəçi qismində bu prosesi izləmişəm. Hətta internet forumu olaraq prosesin təkmilləşdirilməsi və şəffaflığın artırılması üçün təkliflər də təqdim etmişik. Lakin sonuncu baş tutan onlayn satışa müşahidəçi olaraq belə dəvət edilməmişik".**

O.Gündüz dedi ki, bu məsələ bir daha sübut etdi ki, insan müdaxiləsi olmadan həyata keçirilən satış prosesi nə qədər əhəmiyyətli olsa da, bu üsulla korrupsiya risklərinin nə qədər az olduğunu düşünsək də, yenə də sistem daim təkmilləşdirilməli və şəffaflıq artırılmalıdır: "Süni, robot seçimlərin qarşısını almaq üçün müntəzəm yeniliklər edilməlidir. Mütləq olaraq, növbəti onlayn satışın TV-də və sosial mediada canlı yayımı təşkil edilməlidir. Və əlbəttə ki, güzəştli mənzillərin yalnız onlayn satışla deyil, alternativ satış formalarının tətbiqinə də yer verilməlidir".

Hüquqşünas Əkrəm Həsənov da Osman müəllimin fikirlərini dəstəkləyərək dedi ki, dövlət xətti ilə güzəştli hansısa layihə həyata keçirilirsə, orada tam şəffaflıq təmin olunmalıdır: "İstər Sahibkarlığın İnkişafı Fondunun sahibkarlara verdiyi kreditlər olsun, istər Kənd Təsərrüfatı Nazirliyi tərəfindən kənd təsərrüfatı ilə məşğul olan şəxslərə verilən kreditlər olsun, istərsə də, MİDA-nın keçirdiyi layihələr olsun, orada korrupsiya meyilləri, kiminsə qanunsuz qazanc əldə etmək istəyi böyük olur. Bu kimi halların baş verməməsi üçün nə etmək lazımdır? Öncə bu kimi yerlərdə şəffaflıq təmin olunmalıdır. Sual yarana bilər ki, bəs, şəffaflıq necə təmin olunmalıdır? İlk olaraq həmin dövlət qurumlarının saytında bütün müraciətlər dərc edilməlidir. Müraciət edən şəxs barəsində bütün məlumatlar sayta yerləşdirilməli və bu, vətəndaşlar üçün tam açıq olmalıdır. Ekspertlər və vəkillər də baxanda görməlidir ki, qurum hansı meyara görə onları seçib və ya imtina edib. Belə olan halda dövlət qurumunun vətəndaşlar arasında apardığı seçimin nə qədər ədalətli və adekvat olduğunu hər kəs görəcəkdir".

**Hüquqşünas dedi ki, ötən həftə keçirilən satışla bağlı vətəndaşların narazılığına gəldikdə isə, əgər onlar baş verənlərlə razı deyillərsə, hüquqlarını məhkəmə yolu ilə həll edə və bu prosesin qanunauyğun olmadığını məhkəmədə təsdiq etdirə bilərlər: "Düşünürəm ki, satış, yuxarıda qeyd etdiyim qaydalar əsasında, yenidən həyata keçirilməlidir".**

**Aliyə SƏMƏDOVA**

# Hüquq məsləhətxanası

**Əmək müqaviləsi ilə işləyən sığortaolunan vəfat etdikdə onun vərəsələrinə işəgötürən və DSMF orqanı tərəfindən hansı müavinətlər verilməlidir?**

**Belə ödənişlərin verilməsi qanunvericiliyə əsasən necə olmalıdır və belə müavinətləri almaq üçün hansı müddətlər müəyyən olunub?**

**Reyhan SALAMOVA, Quba rayonu.**

- "Məcburi Dövlət Sosial Sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında" Əsasnaməyə əsasən, sosial sığorta hadisəsi baş verdikdə məcburi dövlət sosial sığorta ödəmələri verilir. Bu hüquq sığortaolunan və əmək pensiyaçılarına aiddir.

Əsasnamənin 90-cı bəndinə əsasən, sığortaolunan və ya əmək pensiyaçısı vəfat etdikdə, dəfn üçün müavinət verilir.

Sığortaolunanlar üzrə dəfn üçün müavinətin məbləği sosial müavinətlərə dair qanunvericiliklə, əmək pensiyaçıları üzrə dəfn üçün müavinətin məbləği əmək pensiyaları haqqında qanunvericiliklə müəyyən edilir.

Əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə sosial müavinətlər vaxtaşırı artırılır. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 2022-ci il yanvarın 1-dən etibarən dəfn üçün müavinət 350 manat müəyyən edilmişdir.

Qeyd edək ki, bu məbləğ sığortaolunanlara DSMF-nin müvafiq orqanları tərəfindən verilir. Bunun üçün müraciətə müvafiq qeydiyyat şöbəsindən alınmış ölüm haqqında arayış və müvafiq bələdiyyə tərəfindən verilmiş ölən şəxsi dəfn etməyi öhdəsinə götürmüş şəxs barədə məlumatı özündə əks etdirən arayış əlavə olunmalıdır.

Qeyd olunan dəfn üçün müavinətdən əlavə sığortaolunana həm də işəgötürən tərəfindən müavinətin ödənilməsi nəzərdə tutulur. Belə ki, Əmək Məcəlləsinin 77-ci maddəsinin 7-ci hissəsinə əsasən, işçinin vəfatı ilə əlaqədar əmək müqaviləsinə xitam verildikdə, vəfat edənin vərəsələrinə orta aylıq əməkhaqqının azı üç misli miqdarında müavinət ödənilməsi nəzərdə tutulmuşdur.

Göründüyü kimi, bu müavinətlər eyni təşkilatdan ödənilmir. Vəfat etmiş sığortaolunanlara görə dəfn üçün müavinət DSMF tərəfindən, vərəsələrə çatacaq müavinət isə iş yerindən ödənilir.

Müavinəti almaq üçün müraciət müddəti məhdudlaşdırılmır.

**Bilmək istəyirəm, Azərbaycanda da tibbi müdaxilədən imtina etmək mümkündürmü?**

**Səfər QƏDİMOV, Şəki şəhəri.**

- Bəli, "Əhalinin sağlamlığının qorunması haqqında" qanunun 27-ci maddəsinə əsasən:

* Qanunvericilikdə nəzərdə tutulan hallar (təcili və təxirəsalınmaz tibbi yardımın zəruri olduğu hallar) istisna olmaqla, vətəndaşın və ya onun qanuni nümayəndəsinin tibbi müdaxilədən imtina etmək, yaxud onun dayandırılmasını tələb etmək hüququ vardır.

* Tibbi müdaxilədən imtina etdikdə vətəndaşa, yaxud onun qanuni nümayəndəsinə mümkün olan nəticələr barədə izahat verilməlidir. Tibbi müdaxilədən imtina edilməsi və onun gələcək nəticələri barədə izahat vətəndaşın tibbi sənədlərində qeyd olunur və onun özü, yaxud qanuni nümayəndəsi, eləcə də tibb işçisi tərəfindən imzalanır.

* Qanunvericiliklə müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslərin və ya yetkinlik yaşına çatmayanların valideynləri və ya qanuni nümayəndələri göstərilən şəxslərin həyatı üçün zəruri tibbi müdaxilədən imtina etdikdə, onların sağlamlığının qorunması üçün tibb müəssisələri məhkəməyə müraciət edə bilərlər.

**İşçinin xeyrinə icbari sığorta müqaviləsi bağlanılmayıbsa, ona dəymiş zərər necə ödənilir?**

**Məmməd MƏLİKOV, Quba şəhəri.**

- İstehsalatda baş vermiş bədbəxt hadisədə və ya peşə xəstəliyində təqsirli (tam və ya qismən) olan işəgötürən həm işçiyə xəsarət yetirilməsi və ya sağlamlığının başqa şəkildə korlanması nəticəsində dəymiş zərərin, həm müalicə olunması üçün çəkdiyi, həm də ona müavinətlər verilməsi ilə əlaqədar çəkilən xərclərin və digər əlavə xərclərin, o cümlədən əlavə qidalanmaya, dava-dərman alınmasına, protezləşdirməyə, başqasının qulluğuna, sanatoriya-kurort müalicəsinə, başqa peşəyə hazırlanmaya çəkdiyi xərclərinin əvəzi ödənilir, bu şərtlə ki, zərərçəkənin həmin yardım və qulluq növlərinə möhtac olduğu və bunları pulsuz almaq hüququnun olmadığı müəyyənləşdirilsin.

İşəgötürənin təqsiri üzündən baş vermiş istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçilərə, habelə bu səbəbdən həlak olmuş işçilərin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə ödənclər Nazirlər Kabinetinin 3 nömrəli qərarı ilə təsdiq edilmiş "İstehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən həlak olmuş işçinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə ödənclərin verilməsi qaydaları, şərtləri və məbləği"nə əsasən ödənilir.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

# Şagirdlərə sertifikatlar təqdim olunub




**Xəzər Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "İnkişaf və Sülh naminə Beynəlxalq İdman Günü" münasibətilə festival təşkil edilib.**

Festival çərçivəsində Xəzər rayonu 216 nömrəli tam orta məktəbdə şagirdlər arasında idmanın müxtəlif növləri - şahmat, karate, kikboksinq, futbol və şən startlar üzrə yarışlar keçirilib.

Tədbirdə Xəzər Rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Əliyev, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Xəzər Rayon Komitəsinin sədri Həzərxan Əbilov, 216 nömrəli tam orta məktəbin direktoru Səidə Rəhimova, 5 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzinin inspektoru Mərdan Quliyev və digərləri iştirak ediblər.

**Festivalın sonunda şagirdlərə Xəzər Rayon Gənclər və İdman İdarəsi tərəfindən sertifikatlar təqdim olunub.**

# *Şahmat turniri keçiriləcək*




**Aprelin 29-30-da aqrar sahədə çalışan əməkdaşlar arasında ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan şahmat turniri keçiriləcək.**

*Yarış Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Şahmat Federasiyası və Kənd Təsərrüfatı Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin* birgə təşkilatçılığı ilə **Respublika Şahmat Mərkəzində** baş tutacaq. Oyunlar beynəlxalq dərəcəli hakimlər tərəfindən idarə ediləcək.

**Qeyd edək ki, 9 turdan ibarət olan yarış İsveçrə sistemi ilə keçiriləcək. Kişi və qadınların birgə mübarizə aparacağı turnirdə hər bir iştirakçıya 20 dəqiqə vaxt veriləcək.**

Turnirin mükafat fondu I yer üçün 500 manat, II yer üçün 300 manat, III yer üçün 200 manat məbləğində müəyyən olunub. Həmçinin iki həvəsləndirici yerin hər biri üçün 100 manat veriləcək.

**Turnirdə iştirak etmək istəyənlər üçün qeydiyyat aprelin 20-dək davam edəcək.**

**(Əlaqə: Tel 055 927 88 82)**


**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7505
Sifariş: 1036
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət